İllik Hesabat

# BEYNƏLXALQ AVRASİYA MƏTBUAT FONDU

BMT-nin İQTİSADİ VƏ SOSİAL ŞURASININ ƏSAS MƏŞVƏRƏTÇİ STATUSLU ÜZVÜ

Beynəlxalq Avrasiya Mətbuat Fondu • International Eurasia Press Fund • IEPF

2024






“Mən sizin bəşəriyyət üçün gördüyünüz
təmənnasız işləri dəstəkləyirəm”

Ban-ki Mun,
BMT-nin Baş katibi (2007)

# Mündəricat


Önsöz 4

Təşkilat haqqında 6

Media və vətəndaş cəmiyyətinin inkişafı 7

Sülhquruculuğu və Mina aksiyası 25

BMT DİM-lərin dəstəklənməsi 38

COP29 - Azərbaycan 47

Digər görüşlər, əməkdaşlıqlar və fəaliyyətlər 52

# ÖN SÖZ




2024-cü ildə qlobal problemlərin təsirinin getdikcə daha geniş miqyas aldığının və insanlığın qarşısında birləşmək üçün ciddi çağırışlar tələb etdiyinin şahidi olduq. Bu çağırışların öhdəsindən gəlmək üçün cəmiyyətlər, xalqlar olaraq birgə səylərimizi artırmalı, dünya miqyasında sabitliyi və sülhü təşviq etməli, həmçinin təbiətin və insan hüquqlarının qorunmasına çalışmmalıyıq. 2024-cü il göstərdi ki, bəşəriyyətin üzləşdiyi qlobal çağırışlar təkcə milli sərhədləri deyil, həm də bəşəri dəyərləri sınağa çəkir.

İnsan övladı təbii fəlakətlərdən texnoloji inqilaba qədər bir çox sahədə tarazlığı qorumaq və dünyanı daha ədalətli bir məkana çevirmək üçün həmrəy şəkildə hərəkət etməlidir. Sülhə, barışa çağırmalıdır. Bu dövrdə dövlətlər və vətəndaş cəmiyyəti arasında qarşılıqlı etimadın yaradılması, beynəlxalq hüququn norma və prinsiplərinin əsaslı tətbiqi, eləcə də dayanıqlı həll yollarının axtarılması böyük əhəmiyyət kəsb edir. Sülh və təhlükəsizliyin möhkəmləndirilməsi, qlobal əməkdaşlığın gücləndirilməsi və insan hüquqlarının qorunması yalnız bu prinsiplərə sadiqliklə mümkündür. Mən inanıram ki, bu yanaşma, gələcək nəsillər üçün xoşbəxt və təhlükəsiz bir dünyanın təminatı olacaq.

2024-cü il BAMF üçün əlamətdar nailiyyətlərlə dolu bir il olmuşdur. Təşkilatımız bu müddət ərzində media və vətəndaş cəmiyyətinin inkişafı, mina aksiyası, dayanıqlı inkişaf məqsədləri və sosial istiqamətlərində həm yerli, həm də beynəlxalq səviyyədə mühüm fəaliyyətlər həyata keçirmişdir. BAMF olaraq insan hüquqlarının qorunması, sülhməramlı təşəbbüslərin dəstəklənməsi və cəmiyyətlərin hərtərəfli inkişafı üçün öz töhfəmizi verməyə çalışmışıq.

Yarandığı ilk gündən media və vətəndaş cəmiyyətinin inkişafına xüsusi diqqət ayıran BAMF bu il də bu istiqamətdə önəmli işlər görmüşdür. BAMF-ın "Eurasia Diary - Avrasiya Gündəliyi" analitik xəbər saytı aktiv fəaliyyət göstərmişdir. Həmçinin, "ED-News" onlayn "youtube" kanalı 50 mindən çox izləyici toplamış və minlərlə izləyiciyə analitik və informativ kontent təklif etmişdir. BAMF ilk günki missiyasına sadiq qalaraq çoxsaylı yerli və beynəlxalq jurnalistlərin Qarabağa səfərlərini təşkil etmiş və onların regionala tanışlığına dəstək olmuşdur. Bundan əlavə Əl-Cəzirə Media Şəbəkəsi ilə əməkdaşlıq çərçivəsində Qarabağın işğaldan azad olunmuş ərazilərində mina probleminin beynəlxalq auditoriyaya çatdırılması məqsədilə sənədli filmlərin çəkilişi həyata keçirilmişdir. Həmçinin, Əl Cəzirə ilə yeni memorandum imzalanmış, İslamafobiya, Şuşa Qlobal Media Forumu və COP29 kimi önəmli tədbirlərin işıqlandırılması həyata keçirilmişdir.

BAMF geridə qoyduğumuz ildə bu gün nəinki Azərbaycanın, o cümlədən, dünyanın əsas təhdidlərindən biri olaraq qalan mina probleminə qarşı qətiyyətli addımlar atmışdır. Nəticədə bir il ərzində ANAMA-nın dəstəyi və tapşırığı ilə 1,800 hektara yaxın ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizləmişdir. Xüsusilə, 2023-cü ildə Azərbaycanda ilk dəfə olaraq yaradılan və BMTİP, MAG, APOPO kimi beynəlxalq tərəfdaşlarımızla birlikdə fəaliyyət göstərən qadın minaaxtaranlar komandaları bu sahədə uğurlu fəaliyyət göstərərək həm yerli təhlükəsizliyi təmin etmiş, həm də gender bərabərliyinə dair çağırışa mühüm töhfə vermişdir. Mina təhlükəsinə qarşı maarifləndirmə tədbirləri çərçivəsində regionlarda çoxsaylı görüşlər təşkil olunmuş, minadan zərər çəkənlərə dəstək göstərilmişdir. BAMF mina təhlükəsinin qlobal səviyyədə "18-ci DİM" (Dayanıqlı İnkişaf Məqsədi) kimi qəbul edilməsi təşəbbüsündə fəal rol oynayaraq bu istiqamətdə bir sıra yerli və beynəlxalq tədbirlər keçirmişdir. Xüsusilə, BMT-nin Cenevrə ofisində BAMF-ın təşkil etdiyi "İnkişaf üçün minatəmizləmə" adlı yan tədbir dünyanın aparıcı mina aksiyası təşkilatlarının bir araya gəldiyi önəmli bir platforma rolunu oynadı.

BAMF, həmçinin, ekoloji problemlərin həlli və sülhməramlı təşəbbüslərə dəstək sahəsində tərəfdaşlıq əlaqələrini genişləndirmişdir. Təşkilatımız COP29 tədbirinə hazırlıqlar çərçivəsində həm yerli, həm də beynəlxalq tərəfdaşlarla birgə ekoloji problemlərə və mina təhlükəsinə dair beynəlxalq tərəfdaşlarının da iştirakı ilə yüksək səviyyədə yan tədbirlər təşkil etmişdir. Heidi Kuhn ilə birgə həyata keçiriləcək olan "Minalardan Üzümlüklərə" təşəbbüsü də həm yerli icmaların sosial-iqtisadi dirçəlişinə, həm də qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizəyə mühüm töhfə verəcəkdir.

Bütün bu nailiyyətlər BAMF komandası, tərəfdaşlarımız və dəstəkçilərimizin birgə səyləri nəticəsində mümkün olmuşdur. Qarşıdakı illərdə də təşkilatımız dayanıqlı inkişaf, insan hüquqlarının qorunması və sülh quruculuğu istiqamətində daha böyük addımlar atmağı hədəfləyir.

Üzülərək onu da qeyd etmək istəyirəm ki, artıq 8 ilə yaxındır BAMF-da çalışan, təşkilatımızın "IT mütəxəssisi" və peşəkar fotoqrafı Samir Sadıxov qəfil gələn ölümlə dünyasını dəyişdi. O, gənclərə və ümumilikdə bütün işçilərə örnək olan nümunəvi və işini, təşkilatını və ölkəsini sevən birisi kimi hər zaman xatirimizdə yaşayacaq.

Ümid edirəm ki, 2025-ci il də həm BAMF, həm də dünyamız üçün uğurlu və yaddaqalan bir il olacaq. Biz bir daha öz missiyamıza sadiq qalaraq "Hər kəs üçün Sülh" - deyirik!

**Hörmətlə,**
**Umud Mirzəyev**
**Beynəlxalq Avrasiya Mətbuat Fondunun Prezidenti**

## Beynəlxalq Avrasiya Mətbuat Fondu haqqında qısa məlumat

Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) 1992-ci ildə yaradılmış, BMT-nin İqtisadi Sosial Şurasının (ECOSOC) QHT bölməsinin **Əsas məşvərətçi** statuslu üzvü olan müstəqil beynəlxalq qeyri-hökümət təşkilatıdır. Təşkilat öz statusundan istifadə edərək müxtəlif istiqamətlərdə, xüsusilə, Azərbaycanın və regionun tarixi reallıqlarının çatdırılması ilə bağlı BMT-nin Cenevrə, Nyu York, Vyana ofislərində və digər nüfuzlu beynəlxalq auditoriyalarda mütəmadi olaraq silsilə tədbirlər, paralel sessiyalar keçirir. BAMF-ın 32 illik fəaliyyətinin əsas hissəsi müharibədən zərərçəkmiş və işğaldan azad olunmuş regionlara səfirlərin, xarici diplomatların, jurnalistlərin, tələbələrin səfərlərinin təşkili, orada yaşayan qaçqın və məcburi köçkünlərin diqqətdə saxlanılması, sosial-humanitar layihələrin icrası və s. olmuşdur. BAMF Birinci Qarabağ müharibəsindən sonra yüzlərlə xarici jurnalistin, xalq diplomatlarının, yerli və xarici tələbələrin Azərbaycan haqqında obyektiv informasiyaların toplanıb dünya ictimaiyyətinin diqqətinə çatdırılması məqsədilə Qarabağ bölgəsinə səfərlərini təşkil etmişdir.

Media və vətəndaş cəmiyyətinin inkişafı; Qaçqınların/məcburi köçkünlərin problemləri; Sülhməramlı aksiyalar və münaqişələrin həlli; İcmaların inkişafı; və Təhsil BAMF-ın 5 əsas fəaliyyət istiqamətləridir. BAMF 2007-ci ildə BMT-nin İqtisadi Sosial Şurasının (ECOSOC) QHT bölməsinin Xüsusi məşvərətçi statusunu, 2014-cü ilin əvvəllərində isə Əsas məşvərətçi statusunu qazanmışdır.

BAMF UNDP, UNHCR, UNICEF, UNEP  kimi BMT qurumları, Avropa İttifaqı, ABŞ Dövlət Departamenti və bir sıra xarici ölkələrin Azərbaycan Respublikasındakı səfirlikləri, nazirliklər, eləcə də regiondakı yerli və beynəlxalq qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. BAMF Beynəlxalq Mətbuat İnstitutunun (2003), Beynəlxalq Sülh Bürosunun (2001), Qaçqınlar və Sığınacaq Axtaranlar üzrə Avropa Şurasının (ECRE), ABŞ Dövlət Departamenti Hərbi-Siyasi İşlər Bürosunun Silahların Ləğvi və Qadağan Edilməsi İdarəsinin İctimai-Özəl Tərəfdaşlıq Proqramının üzvüdür. Həmçinin, BAMF Azərbaycan Mətbuat Şurasının və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun yaradıcılarındandır.

BAMF 2000-ci ildən UNDP-nin dəstəyi ilə Mina Təhküləsinə qarşı mübarizə proqramına qoşulmuş və bu gün Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əsas tərəfdaşlarından birinə çevrilmişdir.  BAMF son 24 ildə mina aksiyası proqramı çərçivəsində çoxsaylı ölkə və regional əhəmiyyətli layihələrin əsas icraçısı olmuşdur.

# Media və vətəndaş cəmiyyətinin inkişafı

Yarandığı ilk gündən media və vətəndaş cəmiyyətinin inkişafına xüsusi diqqət ayıran BAMF bu il də bu istiqamətdə önəmli işlər görmüşdür. BAMF-ın “Eurasia Diary - Avrasiya Gündəliyi” analitik xəbər saytı aktiv fəaliyyət göstərmişdir. Həmçinin, “ED-News” onlayn “youtube” kanalı 50 mindən çox izləyici toplamış və minlərlə izləyiciyə analitik və informativ kontent təklif etmişdir. BAMF ilk günki missiyasına sadiq qalaraq çoxsaylı yerli və beynəlxalq jurnalistlərin Qarabağa səfərlərini təşkil etmiş və onların regionala tanışlığına dəstək olmuşdur. Bundan əlavə Əl-Cəzirə Media Şəbəkəsi ilə əməkdaşlıq çərçivəsində Qarabağın işğaldan azad olunmuş ərazilərində mina probleminin beynəlxalq auditoriyaya çatdırılması məqsədilə sənədli filmlərin çəkilişi həyata keçirilmişdir. Həmçinin, Əl Cəzirə ilə yeni memorandum imzalanmış, İslamafobiya, Şuşa Qlobal Media Forumu və COP29 kimi önəmli tədbirlərin işıqlandırılması həyata keçirilmişdir.

2024-cü ildə BAMF Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində müstəqil müşahidəçi qismində iştirak edərək demokratik proseslərin izlənməsi üçün 50 nəfərlik heyətini cəlb etmişdir. Təşkilatımız 225 seçki məntəqəsində müşahidə aparmış, seçkilərin şəffaflığı ilə bağlı qlobal standartlara uyğun hesabat təqdim etmişdir.

2024-cü ildə ilk olaraq yanvarın 3-də Beynəlxalq Avrasiya Mətbuat Fondunun Himayəçilik şurasının ilk iclası keçirilib. İclasda Şura sədri Çingiz Abdullayev, üzvlər Rəşad Məcid, Vaqif Bəhmənli, Əflatun Amaşov və Aysəba Umutlunun və eləcə də BAMF-ın Prezidenti Umud Mirzəyev,vitse-prezidenti Oğuz Mirzəyev və digər şəxslər iştirak ediblər. Müzakirələr zamanı BAMF-ın 2023-cü ildə gördüyü işlər, əldə olunan nəticələr və gələcək fəaliyyət planı ətrafında danışıqlar aparılıb. 2023-cü ilin yekunlarına dair xülasə hesabat səsləndirilib və fəaliyyət planı oxunub. İclasda, həmçinin, 7 fevral 2024-cü il tarixində Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərində BAMF-ın müstəqil müşahidəçi kimi mümkün iştirak məsələsi qaldırılıb. Nəticədə seçkilərdə BAMF-ın 50 nəfər müşahidəçi heyəti ilə təmsil olunması ilə bağlı qərar qəbul olunub. Qeyd etmək lazımdır ki, 2008 və 2013-cü illərdə ölkə üzrə seçki koalisayalarının yaradılmasında birbaşa iştirak edən BAMF digər illərdə keçirilən seçkilərdə də aktiv fəaliyyəti ilə seçilib.



***Yanvarın 10-da Bakıda Azərbaycan Milli QHT Forumunun ümumrespublika forumu keçirilib.*** Forumda ölkədə fəaliyyətdə olan 300-ə yaxın Qeyri-Hökumət Təşkilatının rəhbər və nümayəndələri iştirak edib. Tədbirdə çıxış edən Milli QHT Forumunun Prezidenti Rauf Zeyni buna qədər baş tutan regional forumlarının əhəmiyyətindən bəhs edib. Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev də çıxışçılar arasında olub. Daha sonra bir sıra QHT rəhbərləri öz fikirlərini bölüşüblər. Çıxışlarda Azərbaycan üçün əhəmiyyətli nüanslar, tarixi zəfər, eləcə də növbədənkənar prezident seçkiləri barədə fikirlər səsləndirilib. Həmçinin QHT-lərin Azərbaycanın haqlı mübarizəsində daim fəal olması diqqətə çatdırılıb. Yekunda Milli QHT Forumunun ümumrespublika forumu bəyanat qəbul edib.




**19 Yanvar** - Beynəlxalq Avrasiya Mətbuat Fondunun baş ofisində fevral ayının 7-də Azərbaycanda keçiriləcək Prezident seçkilərində ölkə üzrə müşahidəçi kimi iştirak edəcək BAMF heyəti ilə görüş keçirilib. Görüşdə təşkilatın müstəqil müşahidəçi heyətinin bir hissəsi iştirak edib. BAMF prezidenti Umud Mirzəyev tərəfindən müşahidəçilərin MSK tərəfindən təsdiqlənən vəsiqələri onlara təqdim edilib. Umud Mirzəyev seçki prosesi, qaydalar, müşahidəçilərin hüquq və vəzifləri haqqında danışaraq seçki günü BAMF-ın müşahidəçilik fəaliyyətinin vahid bir mərkəzdən koordinasiya olunacağını bildirib.

**25 Yanvar** – BAMF-ın Tərtər Regional Peşə Təlim Mərkəzində Azərbaycanda keçiriləcək Növbədənkənar Prezident seçkilərində ölkə üzrə müşahidəçi kimi iştirak edəcək heyət üzvlərinin bəziləri ilə görüş keçirilib. Regiondan olan və region dairələrində müşahidəçilik fəaliyyəti ilə məşğul olacaq əməkdaşlara vəsiqələr təqdim edilib. Bundan sonra da seçkilərə qədər olan müddətdə müşahidəçi kimi iştirak edəcək heyət üzvləri ilə müxtəlif görüşlər keçirilib.



30 Yanvar ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun uzunmüddətli müşahidəçiləri Noemi Arcidiakono və Oljas Akanov Beynəlxalq Avrasiya Mətbuat Fondunun baş ofisini ziyarət ediblər. BAMF prezidenti Umud Mirzəyev qonaqları qarşılayaraq ilk olaraq təşkilatın yaranma tarixi, müxtəlif sahələri əhatə edən fəaliyyəti və həyata keçirdiyi çoxsaylı layihələr barədə qonaqlara məlumat verib. Görüş ərzində Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkiləri haqqında fikir mübadiləsi aparılıb. Müşahidəçiləri maraqlandıran bir çox sualla bağlı müzakirələr edilib. U.Mirzəyev 7 fevral tarixində keçiriləcək növbədənkənar prezident seçkilərində BAMF-ın 50 nəfər müşahidəçi missiyası, komandanın müşahidə aparacağı seçki dairələri, əraziləri, komandanın indiyənə kimi olan seçki ilə bağlı gördüyü işlər barəsində ətraflı məlumat verib.



**31 yanvar -** ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun uzunmüddətli müşahidəçiləri Elia Varela-Serra və Yurgen Speidel BAMF-ın Tərtər Regional Peşə Təlim Mərkəzininin qonağı oldular. Missiya BAMF-ın regionda fəaliyyət göstərəcək müşahidəçiləri ilə maraqlı görüşü baş tutub.

---



**7 fevral –** <u>Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində BAMF-ın müşahidəçilik fəaliyyətinin yekunlarına dair qeydlər:</u>

- Beynəlxalq Avrasiya Mətbuat Fondunun 50 nəfərlik müşahidəçi komandası baş ofis Bakıdan və Tərtər, Füzuli, Beyləqan regional qərargahlarından idarə olunmaqla müşahidəçilik fəaliyyətini icra ediblər.

- Bütün müşahidəçi heyət üzvləri ümumilikdə **22 fərqli dairə olmaqla 38 məntəqənin açılışında** iştirak etdilər.

- BAMF-ın 50 nəfərlik müşahidəçi heyətinin təşkilatın prezidenti də daxil olmaqla 10 nəfəri işğaldan azad olunmuş ərazilərdə – **Xankəndi, Şuşa, Laçın, Xocalı, Ağdərə, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı** rayonlarında müşahidəçilik missiyasını yerinə yetiriblər. Onlar həmin rayonlarda 7 dairə olmaqla 19 məntəqədə olublar.

- Paytaxt Bakıya təhkim olunan müşahidəçilər 10 dairədə, regionlardakı müşahidəçilər isə isə 14 dairədə (işğaldan azad olunan ərazilərdəki dairələr istisna olmaqla) fəaliyyət göstəriblər.

- BAMF-ın müşahidəçilik komandası ümumilikdə ölkə üzrə **32 dairə olmaqla 225 məntəqədə** müşahidəçilik missiyasını icra edib.




**8 fevral -** Beynəlxalq Avrasiya Mətbuat Fondunun 7 fevral 2024-cü ildə keçirilmiş Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkilərində müşahidəçilik

missiyasının yekunlarına dair mətbuat konfransı keçirilib. Konfransda təşkilatın müşahidəçilik fəaliyyətinin hesabatı və yekun açıqlamaları səsləndirilib. Mətbuat konfransında yerli KİV-lərin əksəriyyəti iştirak edib.






BAMF-SEÇKİ 2024 Səhifə | 1

Beynəlxalq Avrasiya Mətbuat Fondu
IEPF
International Eurasia Press Fund

BEYNƏLXALQ AVRASİYA MƏTBUAT FONDU (BAMF)

7 fevral 2024-cü ildə keçirilmiş Azərbaycan Respublikası Prezidentinin növbədənkənar seçkilərində BAMF-ın Müşahidəçilik fəaliyyətinin

HESABATI

FEVRAL 2024



24 Fevral tarixində Əl-Cəzirə Media Şəbəkəsinin Sənədli Filmlər Departamentin direktoru Əhməd Mahfouz və qurumun Planlaşdırma şöbəsinin rəhbəri Adel Ksiksi ilə görüş baş tutub. Görüş zamanı Əl-Cəzirə Media Şəbəkəsi Beynəlxalq Avrasiya Mətbuat Fondu ilə birgə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mina problemi ilə bağlı beynalxalq auditoriyalarda yayımlanması üçün sənədli filimlərin çəklişini həyata keçirəcəyi barədə danışıldı və razılığa gəldi.

---



Martın 8-də Beynəlxalq Avrasiya Mətbuat Fondunun dəvəti ilə “Əl Cəzirə” Media Şəbəkəsinin rəhbər şəxsləri Bakıda **"Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə"** mövzusunda keçirilən beynəlxalq elmi konfransın birinci günündə iştirak edib.



Konfransdan sonra “Əl Cəzirə” Media Şəbəkəsinin nümayəndə heyəti və çəkiliş qrupu BAMF-ın baş ofisində Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyevlə görüş keçiriblər.
Görüşdə “Əl-Cəzirə” Media Şəbəkəsinin nümayəndə heyətindən - İctimai Azadlıqlar və İnsan Hüquqları Mərkəzinin direktoru Sami Əl Hacc, “Əl Cəzirə” İngilisin Xəbər müdirliyinin baş aparıcısı Sami Zeydan, Rəqəmsal Şöbənin Məzmun Strategiyasının Meneceri Cəmaləddün Əl-Şəyyal, İctimai Azadlıqlar və İnsan Haqları Mərkəzinin Baş elmi işçisi Kərim Mecri, Mubaşer Xəbər müdirliyinin produseri Asim Əl-Hacc iştirak ediblər.




Görüş zamanı qonaqlar və Umud Mirzəyev arasında bir sıra məsələlər - iki təşkilat arasında əməkdaşlığın genişləndirilməsi, BAMF - "Əl Cəzirə" dostluq əlaqələri, COP29, Qarabağa qayıdış və "Əl Cəzirə" telekanallarının Azərbaycan televiziya məkanında yayımlanması ilə bağlı müzakirələr aparılıb.

Həmçinin, iki il bundan öncə Əl Cəzirə və BAMF arasında münasibətlər rəsmiləşdirilmiş və əməkdaşlığa dair qarşılıqlı anlaşma memorandumu imzalanmışdır.

**9 mart** tarixində Əl Cəzirə Media Şəbəkəsinin nümayəndə heyəti ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüş keçirilib. Görüşdə Azərbaycan-Əl Cəzirə əlaqələrinin inkişaf perspektivlərindən və gələcək mümkün əməkdaşlıqlardan danışılıb. Xüsusən, 2024-cü ildə Şuşada keçiriləcək Şuşa Qlobal Media Forumu ətrafında mümkün tərəfdaşlıq imkanları vurğulanıb.



***30 May Əl-Cəzirə Media Şəbəkəsi ilə BAMF arasında yeni memorandumun imzalanması.***

**30 May** tarixində Beynəlxalq Avrasiya Mətbuat Fondunun uzun illərdir əməkdaşlıq etdiyi **Əl Cəzirə Media Şəbəkəsi** ilə yeni memorandum imzalanıb. Qeyd etmək lazımdır ki, Əl Cəzirə İctimai Azadlıqlar və İnsan Haqları Mərkəzinin direktoru Sami Əlhacla birlikdə imzalanan bu müqavilə yeni və çox ciddi bir mərhələnin başlanğıcıdır. Anlaşmaya əsasən Azərbaycanda və regionda keçirilən önəmli tədbirlərin işıqlandırılması, yerli və beynəlxalq media nümayəndələri üçün təlimlərin təşkili və çox müxtəlif sahələrdə birgə tədbirlərin icrası nəzərdə tutulub. Müqavilə Əl Cəzirə Sənədli filmlər departamentinin icraçı direktoru Əhməd Məhfuz və Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin iştirakı ilə imzalandı.

---







**20 İyul** - BAMF-ın fəxri mükafatı Əl Cəzirə Media Şəbəkəsinin İnsan Haqqları və İctimai Azadlıqlar departamentinin rəhbəri, söz azadlığı və insan hüquqlarının simvolu, dəyərli dostumuz Sami Əl Haca təqdim olunub. Ömrünün 7 ilini Quantanamo həbsxanasında ağır məhbus həyatı yaşamış "Əl-Cəzirə"-nin əfsanəvi jurnalisti Sami Əlhaca bu mükafat BAMF ilə "Əl-Cəzirə" Media Şəbəkəsi arasındakı çoxillik əməkdaşlığın inkişafına və regiondan obyektiv informasiyanın beynəlxalq miqyasda yayılmasına göstərdiyi xüsusi xidmətlərinə görə təqdim olunub. Fəxri mükafatı BAMF prezidenti Umud Mirzayev təqdim edib.

Qeyd edək ki, Departament rəhbəri Sami Əlhaca BAMF – ın fəxri mükafatının təqdimetmə mərasimi "Əl-Cəzirə" Media Şəbəkəsinin rəhbərliyi daxil olmaqla 12 nəfərlik nümayəndə heyətinin iştirakı ilə baş tutub. Mərasimdə qurumun Baş direktoru Mostefa Souaq, Baş direktorunun ofis meneceri Ömər Cəlal Əl Baluşi, İngilis kanalının xəbərlər müdiri Salah Nejm, İngilis kanalının produseri Aysəba Umutlu, Media İnstitutunun direktoru xanım Eman əl Əmri, Araşdırmalar Mərkəzinin Media Tədqiqatları şöbəsinin rəhbəri Məhəmməd Erraji, Araşdırmalar Mərkəzinin Tədqiqat Meneceri Ezzedin Abdelmola, "Əl-Cəzirə"-nin "Sanad" Agentliyinin Rəqəmsal Xəbərlərin Toplanması və Təsdiqinin rəhbəri Əmr Elkazaz və "Mail and Guardian" (M&G) qəzetinin baş icraçı direktoru Tembisa Fakude iştirak ediblər.



BAMF 2012-ci ildən dünyada nüfuzlu media şəbəkələrindən biri olan "Əl-Cəzirə" ilə müxtəlif tədbirlər, konfranslar və qlobal təşəbbüslər çərçivəsində sıx əməkdaşlıq edir. Bu gün "Əl-Cəzirə" nəinki telekanalları, eləcə də araşdırma mərkəzi, sənədli filmlər, sosial proqramları vasitəsi ilə bütün Yaxın Şərqdə fəaliyyət göstərən media qurumlarının öncüllərindəndir. Bu Media Şəbəkəsi münaqişə bölgələrindən informasiyaların operativ şəkildə dünyaya çatdırılması, regiondan olan ən mühüm xəbərlərin, reportajların obyektiv yayımlanması ilə yanaşı, jurnalistlərin hüquqlarının qorunması, insan hüquq və azadlıqlarının təşviqi istiqamətində fəaliyyəti ilə də diqqət mərkəzindədir.

2019-cu ildə BAMF "Əl-Cəzirə" ilə birlikdə Azərbaycan haqqında 5 unikal təqdimat filminin hazırlanmasının əsas təşkilatçısı olmuşdur. Qarabağın azadlığı uğrunda 44 Günlük müharibə zamanı "Əl Cəzirə" media heyətini müşaiyət edən BAMF döyüş bölgələrindən 42 reportajın hazırlanmasında iştirak etmişdir. Həmçinin düşmənin təxribat-terrorçu fəaliyyətinə dair ilk beynəlxalq hesabatı 4 dildə hazırlayaraq dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır. Bu fəaliyyətdə gündəlik olaraq 4 dildə xəbərlər yayımlayan BAMF-ın "Eurasia Diary" analitik portalı yaxından iştirak etmişdir. 2022-ci ilin mart ayında BAMF ilə Əl Cəzirə Media Şəbəkəsi arasında əməkdaşlıq memorandumu imzalanmışdır. Bu əməkdaşlıq nəticəsində müxtəlif istiqamətlərdə jurnalistlər üçün 10-a yaxın birgə təlimlər təşkil olunmuşdur. Həmçinin "Əl – Cəzirə" Azərbaycanda mövcud mina problemi, islamafobiya və tolerantlıq mövzularına dair mütəmadi reportajlar hazırlamışdır. Bu ilin mart ayında iki təşkilat arasında əməkdaşlığın genişləndirilməsi, BAMF - "Əl Cəzirə" dostluq əlaqələri, COP29, Qarabağa qayıdış və "Əl Cəzirə" telekanallarının Azərbaycan TV-lərində yayımlanması ilə bağlı geniş müzakirələr aparılmışdır. Bunun nəticəsi olaraq

may ayında “Əl-Cəzirə” Media Şəbəkəsi ilə imzalanan yeni memoranduma əsasən, Azərbaycanda və regionda keçirilən önəmli tədbirlərin işıqlandırılması, yerli və beynəlxalq media nümayəndələri üçün təlimlərin təşkili və bir çox müxtəlif sahələrdə birgə tədbirlərin icrası nəzərdə tutulmuşdur.




“Əl-Cəzirə” – nin nümayəndələri 20-22 iyul tarixlərində MEDİA Agentliyinin keçirəcəyi “Şuşa Qlobal Media Forumu”-da iştirak etmək üçün Beynəlxalq Avrasiya Mətbuat Fondunun vasitəçiliyi ilə Azərbaycana səfərə gəlib.




22 iyul 2024-cü il Azərbaycanın Milli Mətbuatının yaranmasından 149 il ötüb. Belə bir əlamətdar gündə MEDİA Agentliyinin təşkilatçılığı ilə Şuşada yerli və beynəlxalq media mənsublarının da iştirak etdiyi “2-ci Şuşa Qlobal Media Forum” keçirilib. Forumda BAMF-ın çoxillik tərəfdaşı Əl Cəzirə Media Şəbəkəsinə geniş yer ayrılıb. Birinci paneldə çıxış edən Əl-Cəzirə Media İnstitutunun Media Təşəbbüsləri Meneceri Montaser Maray öz təsirli çıxışı ilə yadda qalıb. Bütünlüklə Əl Cəzirənin təşkil etdiyi “Dezinformasiyaya qarşı daha davamlı

cəmiyyət qurmaq üçün siyasət və təşəbbüslər” adlı ikinci paneldən öncə çıxış edən Əl Cəzirənin Baş direktoru Dr. Mostefa Souaqın forum və müasir medianın durumu ilə bağlı əhatəli çıxışı və təhlilli də auditoriyanın diqqətini cəlb etdi və böyük maraqla qarşılandı. Əl Cəzirə Araşdırmalar Mərkəzinin Tədqiqat Meneceri Ezzedin Abdelmolanın moderatorluğu ilə davam edən paneldə qurumun İngilis kanalının xəbərlər müdiri Salah Nejmin, Araşdırmalar Mərkəzinin Media Tədqiqatları şöbəsinin rəhbəri Məhəmməd Errajinin, "Sanad" Agentliyinin Rəqəmsal Xəbərlərin Toplanması və Təsdiqinin rəhbəri Əmr Elkazazın və “Mail and Guardian” (M&G) qəzetinin baş icraçı direktoru Tembisa Fakudenin




çıxışları da iştirakçılar tərəfindən böyük marağa və müzakirələrə səbəb olub. 2-ci Şuşa Qlobal Media Forum”-da Azərbaycan Respublikasının Prezidentinin Köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev BAMF-ın vasitəçiliyi ilə Azərbaycana səfər edən Əl Cəzirə Media Şəbəkəsinin 13 nəfərlik nümayəndə heyətini qəbul edib. Mostefa Souaqın rəhbərliyi ilə baş tutan və BAMF-ın da yaxından iştirak etdiyi görüşdə forumun vacibliyi və əlaqələrin inkişafı istiqamətlərində maraqlı və faydalı müzakirələr baş tutub. Hikmət Hacıyev göstərdikləri diqqətə görə Əl Cəzirə rəhbərləyinə öz təşəkkürünü bildirərək qarşılıqlı əlaqələrin daha da genişləndirilməli olduğunu qeyd edib.



Sonda Hikmət Hacıyevə Əl Cəzirənin xatirə hədiyyələri və 25 illik yubiley kitabı təqdim olunub.



*23 iyul, Əl Cəzirə Media Şəbəkəsinin Baş direktororu, BAMF-ın çox dəyərli dostu Dr. Mostefa Souaq və BAMF prezidenti Umud Mirzəyev Cıdır düzündə*

---

**Aprelin 24-də** Özbəkistanlı jurnalistlər Beynəlxalq Avrasiya Mətbuat Fondunun baş ofisində olublar. BAMF prezidenti Umud Mirzəyev qonaqları qarşılayıb, onlara təşkilatın yaranması tarixindən, fəaliyyətindən, fondun missiyasından ətraflı məlumat verib.

Görüşdə Özbəkistan Jurnalistlər İttifaqının sədri Xolmurad Səlimov, Özbəkistan Həmkarlar İttifaqının "Trest" və "Doverie" qəzetlərinin baş redaktoru Husan Ermatov, Özbəkistan Jurnalistlər İttifaqı yanında Gənc Jurnalistlər Şurasının sədri Şöhrət Oripov, Özbəkistanın "Tonq yüztəri" qəzetinin baş redaktoru Feroza Odilova, Özbəkistan Dövlət İnformasiya Agentliyinin Beynəlxalq xəbərlər redaksiyasının redaktoru Əzizə Həlimova çıxışlarında Azərbaycanın və Özbəkistanın media sahəsindəki təmaslarının gücləndirilməsinin vacibliyindən, iki qardaş ölkənin uzun müddətli əməkdaşlıqlarından, tarixi bağlılıqlardan danışıblar.

U.Mirzəyev çıxışında rəhbəri olduğu Beynəlxalq Avrasiya Mətbuat Fondunun 90-cı illərdə keçdiyi yoldan, Qarabağda yaşanan erməni vandallığından danışıb. O, Özbəkistan və Azərbaycan arasında, o cümlədən media mənsublarının birgə fəaliyyətinin önəminə toxunub. Özbəkistanlı jurnalistlərin Azərbaycana səfərlərində



təşəbbüs göstərən Mətbuat Şurasının İdarə Heyətinin üzvü, “Azxeber.com” saytının baş redaktoru Hacıbəy Heydərli də görüşdə iştirak edib. O çıxışında Özbəkistan və Azərbaycan arasındakı media əlaqələrindəki intensivliyindən, iki ölkə arasındakı dostluqdan söz açıb.

Görüşdə Azərbaycan və Özbəkistanın ortaq tarixə, mədəni köklərə, oxşar adət-ənənələrə malik olduğu, mədəni münasibətlərin günü-gündən daha da dərinləşməsindən, bu istiqamətdə aparılan işlərdən də danışılıb. Həmçinin, aprelin 22-də Mətbuat Şurası ilə Özbəkistan Jurnalistlər İttifaqı arasında əməkdaşlıq memorandumu imzalanıb.

Aprelin 30-da Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfərlər edən ispaniyalı foto-jurnalist Qervasio Sançez Fernandez BAMF-ın Tərtər regional ofisini – Peşə Təlim Mərkəzini ziyarət edib. Görülən işlər və ofisin fəaliyyəti ilə bağlı BAMF-ın regional meneceri Ruslan İbrahimbəyli məlumat verib.






Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev ispaniyalı fotoqraf Qervasio Sançez Fernandezlə “Yeni Tərtər” qəzetinin redaksiyasını ziyarət edib. Onlar “Yeni Tərtər” qəzetinin 90 illik yubileyi münasibəti ilə qəzetin baş

redaktoru Svetlana Bağırova və qəzetin kollektivini region mətbuatının inkişafında göstərdikləri xidmətə görə təltif edib. Umud Mirzəyev "Yeni Tərtər" qəzeti ilə bağlı fikirlərini bölüşüb.




Sançez Fernandez də "Yeni Tərtər" qəzetini yubiley münasibətilə təbrik edib: "Mən də region qəzetində çalışmışma. Qəzetin nə olduğunu yaxşı bilirəm. Bu günlərdə bizim qəzetdə 130 yaşını qeyd edib. Qəzetin fəaliyyətində uğurlar diləyirəm". Sançez Fernandez Azərbaycanın mina problemi, minadan zərərçəkənlər, o cümlədən Qarabağ həqiqətləri ilə bağlı kitab hazırlayır. O, BAMF və ANAMA ilə əməkdaşlıq edib və fotoqraf Qervasio Sançez Fernandezin Ağdam və Tərtərə səfərlərinin təşkilində ANAMA və BAMF-ın rolu olub. Q.Sançez işğaldan azad edilən ərazilərdə yerli sakinlərlə və o cümlədən, mina qurbanları ilə görüşlər keçirir.

---





13 may tarixində İspan foto-jurnalist Qervaçio Sançes Fernandes Beynəlxalq Avrasiya Mətbuat Fondunun baş ofisinin qonağı olub. O, BAMF-ın prezidenti Umud Mirzəyevlə həm söhbət olarkən Umud Mirzəyev Qarabağ həqiqətlərindən danışıb və təşkilatın gördüyü işləri çox yüksək qiymətləndirib.

BAMF-ın tərəfdaşların biri olan, yüksək peşəkar menecmenti və heyəti ilə seçilən **Bakı Media Mərkəzi** Azərbaycanın işğaldan azad olunan torpaqlarında mövcud mina probleminə qarşı BAMF-ın qadın minaaxtaranlarının cəsarətli və fədakar mübarizəsi barədə xüsusi film hazırlyıb. "Ölüm axtaran qadın" adlanan tammetrajlı sənədli film layihəsi Polşa Kino İnstitutunun beynəlxalq müştərək istehsal müsabiqəsinin qalibi olub.

Filmin Baş prodüseri Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva, rejissoru Fariz Əhmədov, ssenari müəllifi Fariz Əhmədov və İsmayıl İman, operatorları Mateuş Çuxnovski (Polşa), Daniel Quliyev, redaktorları Rasim İsmayılov və Esmira Əyyub, kreativ prodüserləri Maçey Driqas (Polşa) və Tahir Əliyev, ko-prodüseri Vita Zelakeviciute (Polşa) və prodüseri Orman Əliyevdir. Film Bakı Media Mərkəzi ilə Polşanın "Drygas Film Production" şirkətinin birgə istehsalıdır. Filmin əsas mövzusu olan qadın minaaxtaranlar layihəsi Azərbaycanda ilk dəfə olaraq məhz Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) tərəfindən həyata keçirilir.







22 iyul Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev Azərbaycanın KİV rəhbərləri ilə Füzuli şəhərinə səfər ediblər. Umud Mirzəyev Füzuli şəhərindən və oradakı xatirələrindən - ermənilər tərəfindən dağıdılan binalardan biri, əsası 90 il əvvəl Füzulidə qoyulan "Araz" qəzetinin redaksiyası haqqında danışıb.



Rusiyanın "Vestnik Kafkaza" İnformasiya Agentliyinin Baş direktoru, Moskva Dövlət Universitetinin tarix fakültəsinin dosenti İsmayıl Atakişiyev, “Radio Sputnik”-in Proqram direktoru Qiya Saralidze və “Dialoqiya Rıbalki” televiziya kanalının rəhbər şəxslərindən olan Andrey Şukin BAMF-ın regionda gördüyü işlər və qadın minaaxtaranların fəaliyyəti ilə tanış olmaq məqsədilə Tərtər və Ağdam rayonlarına səfər edib. BAMF-ın vitse prezidenti Oğuz Mirzəyev və regional meneceri Ruslan İbrahimbəylinin müşaiyəti ilə baş tutan səfər zamanı mina sahəsində qadın minaaxtaranlarla görüş keçirilib və onların təəssüratlarını öyrənilib.





---

25 İyun-Azərbaycan Qeyri-Hökümət təşkilatlarının əməkdaşlıq forumu keçirilib. Forumda yerli QHT-lərin 200-ə yaxın əməkdaşı iştirak edib. QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva forumun “Yaşıl dünya naminə həmrəylik İli” çərçivəsində təşkil olunduğunu diqqətə çatdırıb. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi






Vahid Hacıyev Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri barədə geniş təqdimatla çıxış edib, azad edilmiş ərazilərdə QHT-lərin forumunun ilk dəfə Zəngilanda keçirilməsini yüksək qiymətləndirib. Daha sonra Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin sektor müdiri Tural Əliyev bildirib ki, son dövrlər QHT-lərlə iş sahəsində kəmiyyətdən keyfiyyətə

əsaslı keçid baş verib. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə QHT sektorunda dərinləşdirilən islahatların, yaradılan sağlam mühitin məntiqi nəticəsidir. Azərbaycan Milli QHT Forumunun İdarə heyətinin yeni sədri Ramil İskəndərli də QHT-lərin imkanlarından səmərəli istifadə olunması üçün ətraflı təhlil işlərinin aparıldığını bildirib. Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev və onun müşaviri Sahib Məmmədov QHT sektorunda uğurla transformasiya prosesinin getdiyini diqqətə çatdırıblar. Sonra forum çərçivəsində "Azərbaycan QHT-ləri: nəticələr və hədəflər" adlı panel müzakirələr baş tutub. Panellərdə Ermənistanın dağ-mədən sənayesinin ekoloji fəsadları", "COP29 və Yaşıl Dünya Naminə Həmrəylik Hərəkatı" və digər aktual mövzular ilə bağlı müzakirələr baş tutub.

2024-cü il dekabrın 5-də Daşkənddə ilk dəfə Özbəkistan-Azərbaycan QHT-lərinin forumu keçirilib. BAMF-ın Proqram departamentinin rəhbəri Xudaverdi Quliyev də Azərbaycan QHT nümayəndə heyətinin tərkibində forumda iştirak edənlər arasında olub. Yerli QHT nümayəndələri ilə yanaşı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev və QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva da iştirak ediblər. Nümayəndə heyəti daha sonra Daşkənddə və Səmərqənddə yerli QHT-lərlə görüşlər keçirib və əməkdaşlıq imkanlarını dəyərləndiriblər.






30 sentyabr - "Vətəndaş cəmiyyəti milli-mənəvi dəyərlərə yönəlmiş ideoloji hücumlara qarşı" ictimai müzakirə 2024-cü ilin sentyabrın 30-da Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə "Vətəndaş cəmiyyəti milli-mənəvi dəyərlərə yönəlmiş ideoloji hücumlara qarşı" mövzusunda ictimai müzakirə keçirilib. Bakı Biznes Mərkəzində təşkil olunan müzakirədə BAMF prezidenti Umud Mirzəyevlə yanaşı Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü Zaur İbrahimlinin moderatorluğu ilə 60-a yaxın QHT nümayəndəsi iştirak edib.



QHT təmsilçiləri Prezident İlham Əliyevin VII çağırış Milli Məclisinin ilk iclasındakı nitqində Azərbaycana qarşı çirkin oyunların ifşasında ictimai məkanda aparılan işlərin önəminə toxunmasını yüksək qiymətləndiriblər və dövlət başçısının ictimai fəalları ideoloji təhlükəsizlik məsələlərində daim fəal olmağa çağırmasını öz fəaliyyətlərində ən mühüm vəzifə kimi qəbul etdiklərini bildiriblər. Bu barədə Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev də öz növbəsində fikirlərini bölüşüb.

21 dekabr BAMF prezdenti Umud Mirzəyev və təşkilatın Himayəçilik şurasının üzvü Rəşad Məcid “Azərbaycan Nəşriyyatı Assosasiyası" İctima Birliyinin (ANAİB) və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə Bakı İdman Sarayında keçirilən 2024-cü ilin son kitab sərgisi "ANAİB I Bakı Kitab Festivalı"-da iştirak ediblər. Sərgidə BAMF-ın nəzdində fəaliyyət göstərən “Avrasiya Press” nəşriyyatı da öz kitabları ilə aktiv təmsil olunub.



## Sülhquruculuğu və Mina aksiyası

25 ildir Mina Aksiyası proqramında çalışan və çoxillik təcrübəyə sahib olan BAMF 2024-cü ildə də bu istiqamətdə uğurlu nəticələrə imza atıb. ANAMA-nın dəstəyi və tapşırığı fəaliyyət göstərən BAMF-ın **İcma Mina Aksiyası komandası** 2024-cü ildə 286 ədəd tank əleyhinə mina, 305 ədəd piada əleyhinə mina, 2244 ədəd isə partlamamış hərbi sursat aşkarlamış və ümumilikdə isə **1790 hektar** ərazini mina və PHS-lərdən təmizləmişdir.

| № | Tank Əleyhinə | Piada Əleyhinə | PHS | Təmizlənmiş ərazi m2 |
|---|---|---|---|---|
| **2002 - 2020** | 237 | 172 | 9653 | 83,242,928 |
| **2021** | 801 | 1344 | 3036 | 4,267,586 |
| **2022** | 138 | 96 | 941 | 22,273,787 |
| **2023** | 220 | 198 | 1037 | 14,484,648 |
| **2024** | 286 | 305 | 2244 | 17,893,922 |
| **CƏM** | **1682** | **2115** | **16911** | **142,162,871** |

Komandanın direktoru Umud Mirzəyev ayda bir neçə dəfə olmaqla komanda üzvləri ilə görüşlər keçirmiş və davamlı olaraq onların fəaliyyətlərini yaxından izləmişdir.



2023-cü ildən başlayaraq Azərbaycanda ilk dəfə olaraq Avropa İttifaqı və ABŞ Dövlət Departamentinin dəstəyi, BMT-nin İnkişaf Proqramı (BMTİP) və Minalar üzrə Məşvərət Qrupunun (MAG) vasitəçiliyi və ANAMA-nın texniki dəstəyi ilə icra olunan **qadın minaaxtaranlar** layihələri də 2024-cü ildə davam edib. Sözügedən komandalar bir il ərzində **93 ədəd tank əleyhinə mina, 3 ədəd piada əleyhinə mina və 20 ədəd partlamamış hərbi sursat** aşkarlamış və ümumilikdə **3.302.862 m2** ərazini tam təmizləmişdir.





2023-cü ildə BAMF-ın Peşə Təlim Mərkəzinin genişləndirilməsi məqsədilə inşasına başlanılan yeni bina 2024-cü ilin sonunda tam təmirli şəkildə istifadəyə hazır vəziyyətə gətirilmişdir. Yeni tikilən **tədris mərkəzinin** əsas ideyası BAMF-ın müxtəlif layihələrində çalışan əməkdaşlarının, xüsusən, qadın minaaxtaranların yerləşmə, qidalanma məsələlərinin oradan təmin olunması, onların asudə vaxtlarının səmərəli təşkili və ümumilikdə Qarabağ bölgəsində yaşayan bütün sakinlərin, xüsusən, mina qurbanları və onların ailə üzvlərinin müxtəlif bilik və peşə bacarıqlarına yiyələnmələrini təmin etməkdir. Növbəti – 2025-ci ildə isə Mərkəzin açılış mərasiminin keçirilməsi gözlənilir.



Qadın minaaxtaran komandalarının fəaliyyətinə nəzarət və mövcud şəraitin qiymətləndirilməsi məqsədilə BMTİP-in regional ofisinin minatəmizləmə üzrə proqram mütəxəssisi Qadim Tarik mütəmadi olaraq regiona monitorinq səfərləri etmiş və davam edən fəaliyyətləri yaxından izləmişdir.






BAMF-ın BMTİP və Minalar üzrə Məşvərət Qrupu (MAG) təşkilatları ilə olan bu uğurlu əməkdaşlıqları çərçivəsində mütəmadi olaraq müxtəlif təlimlər, seminarlar, vorkşoplar və görüşlər keçirilmişdir. Bu tip tədbirlərin məqsədi qarşılıqlı əlaqələrin gücləndirilməsi və işçi heyətin bilik və bacarıqlarının artırılması olmuşdur. Təlimlər əsasən gender bərabərliyinin rolu, liderlik, komanda daxili ünsiyyət bacarıqları, mənəvi təhlükəsizlik, cinsi istismar və zorakılığa qarşı mübarizə istiqamətlərində keçirilmişdir. Təlim sessiyaları BMTİP və MAG təşkilatlarının peşəkar təlimçi-ekspertləri və o cümlədən, BAMF-ın çoxillik təcrübəyə sahib aidiyyatı üzrə əməkdaşları tərəfindən keçirilmişdir.







Mayın 29-da Almaniyanın Azərbaycandakı səfiri cənab Ralf Horleman və MAG təşkilatının rəhbəri Daren Kormak BAMF-ın Tərtər regional ofisində və Ağdamda qadın minaaxtaran komandalarının əməliyyat sahələrində olublar. MAG-ın ölkə direktoru Cenet Dikstranın da iştirak etdiyi səfər zamanı qonaqlar komandaların əməliyyata qədər hazırlıqları və əməliyyatlar zamanı fəaliyyətləri ilə tanış olublar.





*Almaniyanın Azərbaycandakı səfiri Ralf Horleman, MAG təşkilatının rəhbəri Daren Kormak, MAG-ın ölkə direktoru Cenet Dikstra və BAMF prezidenti Umud Mirzəyev*

---

BAMF-ın qadın minaaxtaranlar komandasının üzvü Səmayə Əhmədli regionun qadın liderliyinə həsr edilən ən böyük tədbirlərindən biri olan “SHE” konqresində əsas çıxışçılardan biri kimi iştirak edib. Qadınlar üçün hüquq və imkanların artırılmasına yönəlmiş məqsədyönlü sistemli dəstəyi ilə "SHE Congress" 5 nömrəli Dayanıqlı İnkişaf Məqsədinin (Sustainable Development Goals) - gender bərabərliyinin və bu siyahıya daxil edilən digər məqsədlərin əldə edilməsinə mühüm töhfə verir və dünyanın daha ədalətli və dayanıqlı olmasına kömək edir.








BMT-nin İnkişaf Proqramı və ANAMA-nın Böyük Britaniya hökuməti tərəfindən maliyyələşdirilən potensialın gücləndirilməsi birgə təşəbbüsü çərçivəsində təlim sessiyası keçirilib. Böyük Britaniya Səfirliyinin Siyasi şöbəsinin rəhbəri Edvard Krambl açılış nitqində ölkədə minalarla mübarizə ilə bağlı Birləşmiş Krallığın davamlı öhdəliklərini ifadə edərək gender bərabərliyinin və əlilliyin Azərbaycanın mina təhlükəsi ilə mübarizə proqramında öz əksini tapdığını qeyd etdi.

Qrup məşğələsi layihənin nəticələri kimi nəyin nəzərə alınmalı olduğuna dair qızğın müzakirələrə təkan verdi. Mina hadisələrinin təsirinə məruz qalmış insanlara və digər əlilliyi olan şəxslərə dəstəyini ifadə edən təşkilatların əməkdaşları proqramın hazırlanması, monitorinqi, təsirə əsaslanan hesabatların verilməsi və donorların cəlb edilməsi üzrə 2 günlük təlimlərin ilk gününü başa vurdu. QHT.az xəbər verir ki, bu əməkdaşlıq torpaq azadlığı, qurbanlara yardım, gender, tibbi dəstək, məlumatların idarə edilməsi və partlayıcı maddələrin risk maarifləndirməsi kimi kritik sahələrdə ixtisaslaşmış məsləhətçilər vasitəsilə təşkilati imkanları gücləndirməyə xidmət edir. Qeyri-texniki tədqiqat (NTS), partlayıcı maddələrin risk maarifləndirməsi (EORE), partlayıcı maddələrin zərərsizləşdirilməsi (EOD) və məlumatların idarə edilməsi (IM) üzrə qruplar kimi əsas təşəbbüsləri birlikdə dəstəkləyirik, onları sorğular keçirməyə, icmaları maarifləndirməyə, partlamamış maddələri təhlükəsiz şəkildə zərərsizləşdirməyə və məlumatları effektiv idarə etməyə təşviq edirik. Birləşmiş Krallıq hökuməti tərəfindən maliyyələşdirilən “NextGen” Bərpa Həlləri və İnsan Mobilliyi layihəsinin yeni mərhələsinə start verildiyini elan etməkdən məmnuniyyət duyuruq. Layihə çərçivəsində ANAMA-ya potensialın gücləndirilməsi, texniki yardım, təlim və qabaqcıl texnoloji həllərlə dəstək olmağa davam edəcək.



4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günü münasibətilə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) yanında İctimai Şuranın üzvləri, Azərbaycanın aparıcı QHT rəhbərləri, bir sıra beynəlxalq təşkilatların nümayəndələri, Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) icra etdiyi Azərbaycanın ilk Qadın minaaxtaranları, Qeyri-Texniki Tədqiqat və Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə layihələrinin əməkdaşları, mina qurbanları və onların ailə üzvlərinin iştirakı ilə Tərtərdə tədbir keçirilib. BAMF-ın prezidenti və ANAMA yanında İctimai Şuranın sədri Umud Mirzəyev tədbiri açaraq dünyada və Azərbaycanda mina təhlükəsindən, onun yaratdığı fəsadlardan danışıb:







“Bildiyiniz kimi Azərbaycan ərazisi erməni işğalçıları tərəfindən qarış-qarış minalanıb. Azərbaycan dünyada mina və partlamamış hərbi sursatlarla çirklənməyə görə ilk onluqda yer alır. Tez-tez mina insidentinin şahidi oluruq. İki gün öncə də dörd nəfər mülki şəxs minaya düşərək ağır xəsarət alıblar. Azərbaycan dövləti, Prezidentimiz İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizin minalardan təmizlənməsi üçün var gücü ilə çalışır. Bu işdə biz - vətəndaş cəmiyyətinin nümayəndələri də əlimizdən gələni edirik və bundan sonra da edəcəyik. Çünki uzun illərdən sonra erməni işğalından azad edilmiş yurd yerlərinə məcburi köçkünlərimizin böyük köçü başlayıb. İnsanlarımızı bəşəri bir bəlaya çevrilmiş mina təhlükəsindən qorumalıyıq. ”



Minalar Əleyhinə Azərbaycan Kampaniyasının sədri, ANAMA yanında İctimai Şuranın katibi Hafiz Səfixanov çıxış edərək Azərbaycandakı və mina partlamamış hərbi sursat problemlərinin miqyası, onunla aparılan mübarizə barədə məlumat verdi.

O, Azərbaycandakı mina qurbanlarının sayının Cənubi Qafqazın digər ərazilərindəki bütün mina qurbanlarının sayından çox olduğunu və hər ay yeni mina qurbanları barədə məlumatlar alındığını qeyd vurğulayıb.

Daha sonra iştirakçılar tərəfindən 3300 ədəd ağac əkilib. Aksiya təbii landşafı və ağacları Qarabağ müharibəsinin təsiri nəticəsində məhv edilmiş tarixi Sultanbud meşəsinin Tərtər rayonu Buruclu kəndi ilə Xoruzlu kənd arasındakı ərazisində keçirilib.





Daha sonra BAMF-ın icra etdiyi Qadın minatəmizləmə komandası lahiyəsinin üzvləri, Qeyri-Texniki Tədqiqat və Partlayıcı Sursatların Təhlükəsinə dair Maarifləndirmə layihəsinin nümayəndələrinin iştirakı ilə Ağdam rayonunun  Orta Qərvənd və Təzəkənd  kənlərində, Tərtər rayonunun Ağkənd, Seydimli və Əskipara kəndlərində sakinlərə mina təhlükəsinə dair maarifləndirmə tədbirləri keçirilib.



4 aprel - BAMF prezidenti Umud Mirzəyev və BAMF mina təhlükəsi üzrə maarifləndirmə komandası Ağdam Mexaniki Suvarma İdarəsini ziyarət edib. Umud Mirzəyevi Ağdam Mexaniki Suvarma İdarəsinin müdiri Hafiz Əzimzadə qarşılayıb.



BAMF rəhbəri Azərbaycanda mövcud olan mina problemindən danışıb: "Azərbaycan dünyada mina və partlamamış hərbi sursatlarla çirklənməyə görə ilk onluqda yer alır. Vətəndaş cəmiyyətinin nümayəndələri ilə birgə əlimizdən gələni edirik və bundan sonra da edəcəyik."

Daha sonra onlar işğaldan azad olunan ərazilərdə bərpa və yenidənqurma prosesindən və görülən işlər danışıblar. Bundan başqa BAMF-ın qadın minaaxtaranlar komandasının üzvləri də görüşlərdə iştirak ediblər. Onlar vətəndaşları mina və partlamamış hərbi sursat problemi ilə bağlı maarifləndirib, məlumat veriblər.

---



Aprelin 12-də Avropa İttifaqının (Aİ) Siyasi və Təhlükəsizlik Komitəsinin 27 ölkəni təmsil edən nümayəndələri işğaldan azad edilən ərazilərə səfərləri zamanı Ağdam şəhərində olublar.
Avropa İttifaqının Siyasi və təhlükəsizlik komitəsinin sədri Delfin Pronk, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko və digər komitə üzvləri səfərdə iştirak ediblər. Komitə üzvlərini Azərbaycan Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonları üzrə xüsusi nümayəndəsi Emin Hüseynov, Azərbaycanın Belçika və Lüksemburqdakı səfiri, Avropa İttifaqı yanında Nümayəndəliyinin rəhbəri Vaqif Sadıqov və Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədr müavini Samir Poladov komitə üzvlərini müşayiət ediblər.

Qonaqlara Ağdam şəhəri barədə geniş məlumat verilib. Bildirilib ki, Ağdam şəhəri özünün böyüklüyü ilə yanaşı, həm də qədim tarixə malik bir yer olub. Ağdam barədə danışarkən qonaqlara şəhərin keçmişini özündə əks etdirən fotolarda ermənilər tərəfindən dağıdılan binaların orijinal variantları göstərilib. Ağdam Cümə Məscidi barədə məlumat verilərkən məscidin işğaldan əvvəlki və işğal dönəmində olan fotoları, həmçinin milli mənəvi dəyərlərə zidd, alçaldıcı hərəkətlərə yol verilərək məsciddə mal-qara və donuz saxlanılmasını isbat edən fotolar da qonaqlara təqdim edilib. Emin Hüseynov şəhərin mərkəzində olan mədəniyyət evi, həmçinin şəhərin digər tikililərinin dağıdılması barədə də danışıb.





Qonaqlar Ağdam Konfrans Mərkəzinə də baş çəkiblər. Burada onlara işğaldan sonra ermənilərin əraziləri bilərəkdən və pərakəndə şəkildə mina və partlamamış hərbi sursatlarla çirkləndirmələri, bunun da dinc sakinlərin həyatı üçün ciddi təhlükə yaratması məsələsinə toxunulub. Qeyd edilib ki, ermənilərin basdırdığı minaların partlayışı nəticəsində 44 günlük müharibədən sonra (12 aprel 2024-cü ilə qədər) 350 nəfər minaya düşüb ki, onlardan da 65 nəfəri həlak olub.

Xarici qonaqlar daha sonra Azərbaycanda ilk qadın minatəmizləmə komandası ilə tanış olublar. Qonaqları Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti, layihənin icraçısı Umud Mirzəyev qarşılayıb. Fond rəhbəri komitə üzvlərinə Azərbaycanda mövcud mina problemi ilə bağlı ətraflı məlumat verib. Onun sözlərinə görə, qonaqlar gördükləri mənzərələrdən xeyli mütəəssir olublar:
"Xarici nümayəndələr bəlkə də konfiliktin zərərlərini bu dərəcədə gözləmirdilər. Ancaq gördüklərindən təsirləndiklərini deyə bilərəm. Onlara Qadın Mina Komandasından da məlumat verdim. BAMF-da çalışan əməkdaşların böyük əksəriyyəti konfilikt bölgələrdə yaşayan, müharibədən zərər çəkən adamlardır. Bu cür layihələr təəssüf ki, beynəlxalq camiədə daha az reaksiya verir. Çünki anti-Azərbaycan təbliğatı aparılır və əsl reallıqlar kənarda qalır."

Avropa İttifaqının səfirlər səviyyəsində, Siyasi və Təhlükəsizlik Komitəsinin, həmçinin Avropa institutlarının nümayəndələrindən ibarət heyətin Azərbaycana səfəri 11-12 aprel tarixlərində başlayıb. 27 üzv ölkənin təmsilçiləri həftənin əvvəlində Ermənistana, ardınca Gürcüstana, daha sonra isə Azərbaycana səfər ediblər. Səfərin

məqsədi Cənubi Qafqaz ölkələri ilə Avropa ittifaqı arasında əməkdaşlığı, eyni zamanda regiondakı inkişafları müzakirə etməkdir.



---

26 Aprel Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupu mina təmizləmə fəaliyyəti ilə bağlı region səfərində olublar.



İşçi qrupu ilk öncə Avropa İttifaqı (Aİ) və ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) ANAMA, Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) və Minalar üzrə Məsləhət Qrupu (MAG) ilə birgə tərəfdaşlıqla həyata keçirdiyi qadın minaaxtaranlar layihələrinin üzvləri ilə görüş keçiriblər. Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev qonaqlara görülən işlərdən, layihələrin əhəmiyyətindən, eyni zamanda ölkəmiz üçün vacibliyindən danışıb. Ardınca BAMF-ın supervayzeri Nizami Abbasov və Minalar üzrə Məşvərət Qrupunun (MAG) Texniki Sahə Meneceri Bobbi be Dir İşçi qrupunun üzvlərinə komandanın gördüyü işlər və nəticlər haqda geniş təqdimat həyata keçiriblər.

Daha sonra İşçi qrupunun üzvlərinə minaaxtaran itlərlə və siçovullarla aparılan minatəmizləmə fəaliyyəti ilə seçilən APOPO təşkilatının fəaliyyəti haqqında da məlumat verilib. Bundan başqa onlar mina və partlamamış silah-sursatların zərərsizləşdirilməsi prosesini izləyiblər.





4 may tarixində Avropa Komissiyasının (AK) Genişlənmə və Qonşuluq Siyasəti üzrə Baş direktoru Qert Yan Kupman Azərbaycanın işğaldan azad edilmiş Ağdam şəhərinə səfər edib və BAMF-ın minaaxtaran komandaları ilə görüşüb.

Səfər ANAMA-nın İdarə heyətinin sədr müavini Samir Poladova, Aİ Azərbaycan nümayəndəliyinin rəhbəri Piter Mixalkoya və Azərbaycan Respublikası Prezidentinin Qarabağ Xüsusi nümayəndəliyi ilə baş tutub.





**29 May -** Mina aksiyası proqramında dünyanın aparıcı təşkilatlarından olan, BAMF-ın partnyoru "Sülhün Kökləri" təşkilatının qurucusu və rəhbəri, Dünya Ərzaq Mükafatı laureatı Heidi Kühn yenidən Azərbaycana səfər edib. BAMF prezidenti Umud Mirzəyev xanım Heidi Kuhn ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi cənab Elçin Əmirbəyov görüş keçirib. Görüşdə ANAMA, Sülhün Kökləri və BAMF əməkdaşlığından və "Mines to Vines" (Minalardan üzümlüklərə) layihəsinin ölkəmizdə həyata keçirilməsinin perspektivlərindən danışılıb.

Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF), həmçinin, “Sülhün Kökləri” təşkilatının təsisçisi və rəhbəri Heidi Kuhnun Nobel Sülh Mükafatına namizədliyini elan edib. 2024-cü il Nobel Sülh Mükafatı üçün onun “Minaları üzümlüklərə” çevirmək səylərinə - bütün dünyada minaları üzüm bağları və meyvə bağları ilə əvəz etmək cəhdlərinə görə namizədliyi irəli sürülüb. Keçmiş minalanmış sahələrə yeddi milyondan çox ağac əkərək, o, bütün dünyada müharibədən əziyyət çəkən torpaqlarda yaşayan milyonlarla fermer və ailənin həyatına təsir göstərmişdir.



## BMT DİM-lərin dəstəklənməsi

Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) **BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini (DİM)** dəstəkləməyi öz missiyasının əsas prioritetlərindən biri hesab edir. Təşkilat, xüsusilə mina təhlükəsinin qlobal inkişaf kontekstində həlli və "18-ci DİM" təşəbbüsü kimi beynəlxalq səviyyədə tanınması istiqamətində mühüm addımlar atmaqdadır. BAMF, həmçinin iqlim dəyişikliyi, gender bərabərliyi və icma inkişafını təşviq edən layihələr həyata keçirərək sosial-iqtisadi və ekoloji problemlərin həllinə töhfə verir. Bu fəaliyyətlər çərçivəsində təşkilat müxtəlif təlimlərdə, seminarlarda, beynəlxalq forumlarda iştirak edərək və əsaslı bəyanatlar verərək DİM-lərin həyata keçirilməsinə davamlı dəstək nümayiş etdirir.

Mayın 31-də Umud Mirzəyev və "Sülhün Kökləri" təşkilatının rəhbəri və qurucusu Heidi Kuhn Azərbaycanda keçirilən sayca III beynəlxalq minatəmizləmə konfransında iştirak ediblər. İki tərəfdaş təşkilat BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə Mina Təhlükəsi ilə Mübarizəyə dair 18-ci DİM-in daxil edilməsini dəstəkləyən çağırış məktubunu imzalayıblar.





Azərbaycan 11-22 noyabr tarixlərində baş tutacaq illik iqlim dəyişikliyi sammiti olan COP29 tədbirində 2024-cü il İqlim Dəyişikliyi Konfransına ev sahibliyi edəcək şəhərdir. Bu həftənin əvvəlində Heidi Kuhn Qarabağın minalanmış sahələrinə bir vaxtlar yüksək keyfiyyətli üzümlərinə görə "Qara Bağ" kimi tanınan üzümçülük bölgəsinə getdi. Bu gün torpaq həm torpağa, həm də ruha səpilmiş təxminən 1,5 milyon mina ilə qaralmışdır. Həm Heidi Kuhn, həm də Umud Mirzəyev minaların partladılması və davamlı üzüm bağlarının bərpası üçün Qarabağın Füzuli rayonunda 100 hektar torpaq sahəsində pilot layihə elan ediblər.
"Hər bir mina çıxarılır və əkilən hər meyvə ağacı gələcək nəsilləri qidalandırır. Və hər əkilən ağac Yer Ananın ağciyərlərini bərpa etmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün karbon sekvestrləri təşkil edir. 60-dan çox ölkədə təxminən 110 milyona yaxın mina var. Nobel sülh mükafatı üçün təqdim olunan nominasiya isə gələcək nəsillərin çiçəklənməsi üçün mina sahələrini davamlı kənd təsərrüfatı ilə əvəz etmək axtarışımı bir daha təsdiqləyir".
Bəyanatın mətni:

“Sülhün Kökləri və Beynəlxalq Avrasiya Mətbuat Fondu 2022-ci il Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin imzalanmasının 77-ci ildönümündə Minalardan azad təhlükəsiz dünya naminə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə Mina Təhülkəsi ilə Mübarizəyə dair 18-ci DİM-in əlavə olunması təşəbbüsü ilə bağlı birgə bəyanat yaydı.



Biz tərəqqi və inkişaf üçün səy göstərməyə davam edərkən, dünya liderlərini, beynəlxalq təşkilatların və QHT-lərin nümayəndələrini, ictimai xadimləri və bütün səlahiyyətli şəxsləri mina təhlükəsi ilə mübarizənin Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə (SDGs) 18-ci qlobal məqsəd kimi daxil edilməsi təşəbbüsünü dəstəkləməyə çağırırıq.

Bu gün 60 milyondan çox mina dünyanın 110 ölkəsinə səpələnib və öz qurbanlarını gözləyir. Hər il 5.000-dən çox dinc sakin bu ölümcül vasitələrin və müharibənin partlayıcı qalıqlarının qurbanı olur. Gündəlik olaraq, dünyada təxminən 15 nəfər minaların qurbanı olur və qurbanların hər 3 nəfərindən biri uşaqdır. Hər gün yüzlərlə yeni mina torpağa basdırılır və insanları öz tələsinə salır. Hazırda, Azərbaycan, Kolombiya, Kamboca, Laos, Konqo, Ukrayna, Vyetnam, Misir, Bosniya və Hersoqovina, Əfqanıstan dünyanın minalarla ən çirklənmiş ölkələri sırasındadır.

Minalarla ən çox çirklənən ölkələrdən biri olan Azərbaycanda son 30 il ərzində 3500-ə yaxın insan minaların qurbanı olub. Azərbaycanın minalarla çirklənmiş ərazilərini öz gözlərimizlə görməklə biz böyük fəlakətin şahidi olmuşuq. Çox təəssüf ki, İkinci Qarabağ Müharibəsindən sonra bu zonalara daxil olmuş 360-dən çox şəxs mina insidentlərinin qurbanı olub. Ən dəhşətli fakt odur ki, baş vermiş mina insidentlərinin 70%-dən çox hissəsi mülki təyinatlı obyektlərdə - yaşayış və əkin sahələri, su hövzələri, otlaq sahələri, qəbirstanlıqlar və s. ərazilərdə baş verib.

Biz uzun illərdir ki, minatəmizləmə proqramı çərçivəsində fəaliyyət göstərən təşkilatlar olaraq, müharibədən zərər çəkmiş bölgələrdə həm minatəmizləmə, həm də humanitar yardımla məşğul olmaqla yanaşı, mina problemini dərin ağrılı və faciəli humanitar problem kimi qəbul edirik. Biz inanırıq ki, dünya liderləri və səlahiyyətli şəxslər minaların yaratdığı təhlükə ilə mübarizənin həyati əhəmiyyətini nəzərə alaraq yenidən danışıqlara qoşulacaqlar. Minalar onun mənfi təsirinə məruz qalan ölkələrdə

sosial-iqtisadi inkişafa və Dayanıqlı İnkişaf Məqsədləri üzrə 2030 Gündəliyinə nail olunmasına ciddi maneələr törədir.

Mina təhlükəsi ilə mübarizəyə dair 18-ci Dayanıqlı İnkişaf Məqsədi təşəbbüsünün reallaşması üçün mina və partlamamış hərbi sursat problemindən əziyyət çəkən dövlətlər tərəfindən çoxsaylı addımlar atılmış və çağırışlar edilmişdir. Laos və Kamboca kimi ölkələrin ardından Azərbaycan da 2023-cü ildə mina problemini 18-ci milli Dayanıqlı İnkişaf Məqsədi kimi mina qəbul etdiyini rəsmən açıqladı.

18-ci Dayanıqlı İnkişaf Məqsədi təşəbbüsü bu ilin 2023-cü il martın 2-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşündə irəli sürülüb. Biz Azərbaycan Prezidentinin DİM 18 ilə əlaqədar təşəbbüslərini və davamlı olaraq bununla bağlı məlumatlandırma və təbliğat xarakterli müxtəlif ölkələri bir araya gətirmə tədbirlərini yüksək qiymətləndiririk. Bütün bu fəaliyyətlər bizləri daha da ruhlandırır və qətiyyətli edir.



18-ci DİM sülh üçün mina təhlükəsi ilə mübarizəyə və insanların təmiz ətraf mühitdə, sağlam və yüksək rifahda, o cümlədən sülh və təhlükəsizlik şəraitində yaşamasına yönəlib. Biz mina təhlükəsi ilə mübarizənin DİM-lərin tərkib hissəsi kimi qəbul edilməsinin bütün ölkələrin səhiyyə və mənsubiyyət sahəsində daha əlverişli və müstəqil bir gələcək inşa etmələrində köməkçi rol oynayacağına inanırıq.

Sizdən, bu məsələni dünya gündəmində saxlamaq , ölkələrinizin əlaqədar qurumlarında və beynəlxalq təşkilatlarda bu məsələni diqqətdə saxlamaq və məqsədəuyğun fəaliyyət göstərmək üçün zəruri dəstəyi təmin etməyiniz xahiş olunur. Yaradıcı və birgə əməkdaşlığımız vasitəsilə, 18-ci DİM təşəbbüsünü dəstəkləməklə mina və bu kimi digər mühüm məsələlərin öhdəsindən gələcəyimizə və DİM-lərə olan inancımızı gücləndirəcəyimizə inanırıq.

Biz dövlət liderlərini, hökumətlərarası qurumların nümayəndələrini, beynəlxalq təşkilatları, QHT-ləri və digər maraqlı tərəfləri Minalardan Azad Dünyaya doğru 18-ci Davamlı İnkişaf Məqsədi kimi Minalarla Mübarizə proqramını dəstəkləməyə çağırırıq."

11 may - Beynəlxalq Avrasiya Mətbuat Fondunun nümayəndələri BMT-nin Nyu-York şəhərində yerləşən Baş Qərargahında işgüzar səfərdə olublar. Səfər zamanı

BAMF-ın vitse-prezidenti Oğuz Mirzəyev və BAMF-ın İnsan Resursları üzrə Mütəxəssisi Heydər Rzayev BMT-nin baş qərargahında bir sıra konfranslarda fəal iştirak edərək aktual və qlobal məsələlərə dair fikir mübadiləsi aparıblar. Daha sonra BAMF nümayəndələri BMT-nin QHT Bölməsinin rəhbəri, cənab Vuk-Jin Çanq ilə görüşüb.



Görüşdə hər iki tərəfin humanitar səylərinin inkişaf etdirilməsi, sülhün təşviq edilməsi, tərəfdaşlığı gücləndirmək və əməkdaşlığı genişləndirmək barəsində müzakirələr aparılıb. Görüş zamanı Azərbaycan QHT-lərinin BMT-nin ECOSOC-da təmsilçiliyinin və inteqrasiyasının gücləndirilməsi strategiyaları, o cümlədən Azərbaycanda yerli QHT-lər üçün BMT-nin ECOSOC statusunun necə əldə edilməsi ilə bağlı onlayn sessiyaların keçirilməsi təklifi ətrafında müzakirələr olub. Müzakirə olunan digər mühüm mövzu isə BAMF-ın dördillik hesabatlarının BMT-yə təqdim edilməsi olub. Görüş cənab Vuk-Cin Çanqın, BAMF tərəfindən göndərilən Azərbaycana səfər ilə əlaqədar dəvətinin qəbul etməsi ilə yekunlaşıb.



**13 May**- BAMF-ın tərəfdaşı, Dünya Ərzaq Mükafatı laureatı Heidi Kuhn və Nobel mükafatı laureatı professor Məhəmməd Yunus Vatikanda keçirilən, Nobel mükafatçılarının, alimlərin, ictimai xadimlərin və Roma Papası Fransiskin də iştirak etdiyi "Bəşəriyyətin Qardaşlığı" (Fraternity of Humanity) adlı tədbirdən BAMF-ın prezidenti Umud Mirzəyevə zəng açdılar. Onlar Azərbaycanın da təşəbbüs etdiyi və dəstəklədiyi Mina probleminin BMT-nin 18-ci DİM'i kimi qəbul olunması üçün birlikdə çağırış etdilər.

9 Avqust Minasız dünya təşəbbüsü - 18-ci DİM ilə bağlı onlayn görüş keçirilib

Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə həyata keçirdiyi "Minasız dünya təşəbbüsü - BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 18-ci məqsədi kimi" adlı layihə çərçivəsində onlayn birgə görüş keçirilib.

Görüşdə BAMF-ın partnyorları və layihə çərçivəsində əməkdaşlıq etdiyi təşkilatlar, mina aksiyası üzrə ixtisaslaşmış ekspertlər, BMT-nin Cenevrə və İstanbul ofisindən nümayəndələr, ABŞ-dan və Avropanın digər ölkələrindən olan qonaqlar iştirak ediblər. Açılış nitqi ilə çıxış edən BAMF prezidenti Umud Mirzəyev qlobal mina problemindən, dünya dövlətlərinin səylərindən və sözügedən layihənin əhəmiyyətindən danışıb: “Mina problemi insanlığa qarşı yönəlmiş humanitar cinayətdir, qlobal problemdir. Bu gün Azərbaycanla yanaşı bu problemi yaşayan ölkələr arasında beynəlxalq səviyyədə əməkdaşlıqları inkişaf etdirmək istəyən hökümətlər var. Hansı ki, onlar bu problemin ciddiliyini daha çox diqqətə çatdırmaq üçün BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə 18-ci məqsəd kimi Mina təhlükəsinin əlavə olunması təşəbbüsü ilə çıxış edirlər. Biz də istəyirik ki, bu tip çağırışların və qərarların sayı artsın və təsir dairəsi genişlənsin. Təsadüfi deyil ki, Azərbaycan prezidenti İlham Əliyev də öz çıxışlarında mina problemin bəşəri problem olduğu üçün beynəlxalq ictiamiyyəti səssiz, fəaliyyətsiz qalmamağa çağırır. Ötən il Bakıda keçirilən Qoşulmama Hərəkatının zirvə toplantısında Azərbaycan prezidenti İlham Əliyevin də 18-ci SDG təşəbbüsünü dəstəkləməsi və üzv dövlətləri həmrəylik nümayiş etdirməyə səsləməsi bizi daha da qətiyyətli etdi. Bu günki görüş bizim ilk onlayn görüşümüzdür və inanıram ki, burada səslənən fikirlər bu təşəbbüsün dəstəklənməsi üçün çox faydalı və effektiv olacaqdır.”




Birgə koordinasiya görüşündə iştirak edənlər arasında “Sülhün Kökləri” təşkilatının qurucusu və rəhbəri Heidi Kuhn, “Cenevrə Araşdırmalar Mərkəzinin” direktoru Ventslav Sabev, BMT-nin İnkişaf Proqramının regional İstanbul ofisinin Mina

aksiyası üzrə konsultantı Qadim Tarik, Beynəlxalq Qızıl Xaç Komitəsinin mütəxəssisi Rövşən Hümbətov və digər önəmli şəxslər də təmsil olunublar.

---



31 iyul İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri, eyni zamanda Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibi Huseyn Huseynov ilə Azərbaycanda DİM-lərin icrası və 18-ci DİM təşəbbüsünün dəstəklənməsi istiqamətində önəmli görüş keçirilib. Görüşdə BAMF prezidenti Umud Mirzəyev və Proqram departamentinin rəhbəri Xudaverdi Quliyev iştirak ediblər.






BAMF-ın Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə böyük qrant müsabiqəsi çərçivəsində həyata keçirdiyi "Minasız dünya təşəbbüsü - BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 18-ci məqsədi kimi" adlı layihəsi çərçivəsində BMT-nin Cenevrə ofisində keçirilməsi planlaşdırılan əsas tədbirin təşkili və hazırlıqları üçün 08-12 sentyabr tarixlərində BAMF prezidenti və layihə rəhbəri Umud Mirzəyev Cenevrəyə səfər edib. Səfərin əsas məqsədi keçirilməsi nəzərdə tutulan paralel sessiyanın təşkili üçün əlaqələrin genişləndirilməsi və partnyorların tədbirə cəlb olunması olub. Səfər çərçivəsində ilk olaraq BMT-nin Cenevrə ofisinin



Baş direktorunun Kabinet rəhbəri xanım Lidiya Qriqoreva ilə görüş keçirilib. Görüşdə Azərbaycanın 18-ci DİM təşəbbüsünüdən, icra olunan layihədən və Azərbaycanın COP29 hazırlıqlarından danışılıb. Növbəti önəmli görüş isə BMT-nin Tərksilah İşləri Ofisinin Cenevrə üzrə Xidmət Rəhbəri Melanie Regimbal ilə keçirilib. Xanım Regimbal da görülən işləri və təklifləri dəstəkləyərək yekun tədbirdə iştirakla bağlı istəyini qeyd edib. BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Avropa ofisinin Siyasət və Tərəfdaşlıqlar üzrə Koordinatoru Vondvosen Asnake Kibret ilə də COP29 ətrafında maraqlı müzakirələr aparılıb.



Daha sonra Mina aksiyası proqramında dünyanın aparıcı təşkilatlarının nümayəndələri ilə - ardıcıl olaraq, İsveçrə Minalarla Mübarizə Fondunun (FSD) Əməliyyatlar üzrə rəis müavini xanım Angele Disantis, Minaların Qadağası üzrə Beynəlxalq Kampaniya – Kasetli Sursat Koalisiyasının (ICBL-CMC) direktor müavini Kasia Derlicka və Piyada Əleyhinə Minaların Qadağası Konvensiyasının İcrasına Dəstək Bölməsinin direktoru Xuan Karlosla görüşlər keçirilib. Bu görüşlərdə də əsas müzkirə mövzuları Azərbaycanın mina problemi və 18-ci DİM təşəbbüsü və Agentliyin dəstəyi ilə icra olunan layihə və onun yekun tədbirinin təşkilatçığı olub.



Səfərin son günlərində Nobel Sülh Mükafatı laureatı "Nüvə Silahlarının Ləğv Edilməsi üzrə Beynəlxalq Kampaniya (ICAN)" təşkilatının Cenevrədəki baş ofisində icraçı direktoru, insan hüquqları və beynəlxalq hüquq sferasında tanınmış simalardan biri olan Melissa Parke ilə müzakirələr aparılıb. Xanım Parke bu ilin oktyabr ayının sonlarında keçirilməsi planlaşdırılan 18-ci DİM ilə bağlı paralel sessiyada əsas spikerlərdən biri olmağa və hətta həmin vaxt əməkdaşlıqların inkişafı üçün memorandum imzalamağa da hazır olduğunu bildirib.




Layihənin əsas tədbirinin - paralel sessiyanın 31 oktyabr – 1 noyabr tarixləri aralığında baş tutacaq BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı İdarəsinin (OHCHR) Sosial Forumunda keçirilməsini planlaşdırılır. Bu sessiya layihənin təsirini və mahiyyətini daha effektiv çatdırmaq, beynəlxalq ictimaiyyətin, nüfuzlu təşkilatların diqqətini cəlb etmək və təşəbbüsün vacibliyinə maraq qazandırmaq üçün mühüm rol oynayacaq.



Qeyd edək ki, layihənin əsas məqsədi Azərbaycanda keçiriləcək beynəlxalq COP29 tədbiri çərçivəsində ekoloji problemlərin önəm daşıdığı bir zamanda minaların insan sağlamlığına və təbiətə vurduğu ziyanlara, xüsusən qlobal sülh və inkişaf üçün yaratdığı maneələrə dair unikal çağırışlara və BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi (SDG/DİM) kimi mina probleminin müəyyən edilməsi təşəbbüsünə dəstək verməkdir.



**31 Oktyabr** 2024-cü il Beynəlxalq Avrasiya Mətbuat Fondunun təşkilatçılığı ilə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının təşkil etdiyi (OHCHR) 2024-cü il Sosial Forumu çərçivəsində "İnkişaf naminə minalardan təmizləmə" adlı yan tədbir keçirilib. 40-dan çox beynəlxalq təşkilat və hökumət nümayəndəsinin qatıldığı tədbirdə minaların və Müharibənin Partlamamış Qalıqlarının (MPQ) səbəb olduğu qlobal böhranın həlli üzrə məsələlər, mina probleminin 18-ci DİM kimi qəbul edilməsi təşəbbüsü və minaların insan hüquqlarına və insanların sosial-iqtisadi həyatına təsiri kimi məsələlər müzakirə olunub.





Açılış nitqi ilə çıxış edən BAMF Prezidenti Umud Mirzəyev əvvəlcə tədbir iştirakçılarını salamlayıb, daha sonra isə BAMF-ın fəaliyyəti və Azərbaycanın mina probleminin ciddiliyi haqqında danışıb. Umud Mirzəyev dövlət rəhbərlərini, beynəlxalq təşkilatları və vətəndaş cəmiyyəti qurumlarını mina probleminin həllini davamlı inkişaf kontekstində prioritet kimi qəbul etməyə, bu istiqamətdə "18-ci DİM" təşəbbüsünü dəstəkləməyə və birlikdə minalara "yox" deməyə çağırıb.



Çıxışdan sonra tədbir iştirakçılarına "DİM 18 niyə vacibdir?" adlı video-təqdimatı nümayiş etdirilib. Mina kampaniyasına dəstək xarakterli müxtəlif çağırışların yer aldığı videoda mina probleminin statistik aktuallığı da öz əksini tapıb. Daha sonra tədbirin moderatoru Cenevrə Geostrateji Araşdırmalar Mərkəzinin Baş Katib müavini Ventzlav Sabev mina aksiyası proqramında çalışan panelistləri təqdim edərək və panel müzakirələri açıq elan edib.

Tədbirin gedişatında Ermənistanın Cenevrədəki BMT və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin birinci katibi Hambardzum Minasyan söz alaraq tədbirin çıxışçılarını yalan məlumatları paylaşmaqda və propoqanda etməkdə ittiham edib. O Ermənistanın mina məsələsində günahsız olduğunu və Azərbaycana 2021-ci ildə mina xəritələrinin təqdim olunduğunu bildirib. BAMF prezidenti Umud



Mirzəyev müzakirələr zamanı səsləndirilən fikirlərin faktlara əsaslandığını və reallıqları əks etdirdiyini əyani sübutla nümayiş etdirərək erməni diplomatın layiqli cavabını verib. Umud Mirzəyev minadan zərərçəkən şəxslərin fotoları olan portretləri göstərərək onların Ermənistanın basdırdığı minaların qurbanı olduğunu və öz yaşadığı evin də Ermənistan Silahlı Qüvvələri tərəfindən dağıdıldığını, xüsusilə, qeyd edib.

# COP29 – Azərbaycan




**11 Noyabr** COP29 konfransı çərçivəsində Yaşıl Zonada yerləşən Milli QHT Forumunun Pavilyonunda "İqlim Böhranında QHT-lərin Rolunun Gücləndirilməsi: Kənd Təsərrüfatının Davamlılığı, Su İdarəçiliyi və Qida Təhlükəsizliyinə dair əməkdaşlıq yanaşmaları" adlı panel müzakirəsi baş tutub. Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) tərəfindən təşkil olunan bu tədbirdə yerli və beynəlxalq ekspertlər QHT-lərin iqlim böhranına qarşı fəaliyyətlərini gücləndirmək üçün konkret görüləcək işləri və əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Panelin açılış nitqində çıxış edən Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev, iqlim böhranının kənd təsərrüfatı və su resursları üzərindəki təsirlərinə toxundu. O, xüsusilə, münaqişə sonrası ərazilərdə ekoloji və humanitar layihələr vasitəsilə icmalar üçün yeni inkişaf imkanları yaratmağı BAMF-ın bir vətəndaş cəmiyyəti təşkilatı olaraq əsas missiyalarından biri kimi qeyd etdi. Həmçinin, bu çətinliklərə cavab olaraq QHT-lərin su ehtiyatlarının idarə olunmasında, kənd təsərrüfatının davamlılığında və qida təhlükəsizliyinin qorunmasında əsas rol oynaya biləcəyini vurğulayıb. Çıxışın sonunda Umud Mirzəyev iqlim dəyişikliyinin təsirlərini azaltmaq və yerli icmaların dayanıqlı inkişafını təmin etmək üçün QHT-lərin daha aktiv və strukturlaşmış təşəbbüslərə ehtiyacı olduğuna işarə edib. Panelin yekununda sual-cavab sessiyasında açıq müzakirələr baş tutub. Müzakirələr iqlim dəyişikliyinin kənd təsərrüfatı və qida təhlükəsizliyinə təsirlərini azaltmaq üçün QHT-lərin strateji rolunu vurğulayan və konkret fəaliyyətlərə yönəlmiş təkliflərlə yekunlaşıb. BAMF 2013-cü ildən BMT-nin Ətraf Mühit Proqramının (UNEP) üzvüdür və indiyədək su resurslarının düzgün idarəolunması və icmalarda kənd təsərrüfatının inkişafı istəqamətində çoxsaylı layihələrin icraçısı olmuşdur.

**14 Noyabr** BMT-nin QHT-lər üzrə Şöbəsinin rəhbəri Vuk Cin Çanq Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) ofisini ziyarət edib. BMT-nin yüksək çinli rəsmisini qarşılayan Umud Mirzəyev onu BAMF-ın yarandığı gündən bəri həyata keçirdiyi layihələrlə, konflikt bölgələrinə təşkil etdiyi jurnalist səfərləri ilə, BAMF-ın hazırladığı filmlərlə tanış edib. Tanışlıqdan sonra Umud Mirzəyevin təşkilatçılığı

ilə ofisin konfrans zalında V.J.Çanq la Azərbaycan QHT sektorunun nümayəndələrinin görüşü baş tutub.



Əvvəlcə BAMF-ın prezidenti qonağını Azərbaycandakı QHT sektorunun vəziyyəti barədə məlumatlandırdı. Sektorun fəaliyyətindən və işıqlandırdığı, həll etmək üçün mübarizə apardığı problemlərdən, Qarabağ və ətraf rayonlarda aparılan quruculuq və minatəmizləmə işlərindən, “Böyük Qayıdış” planından danışan Mirzəyev vurğulayıb ki, bu fəaliyyətlərin olduqca irimiqyaslı olmağına baxmayaraq, BMT və digər beynəlxalq təşkilatlar Azərbaycanı demək olar ki, tək buraxıblar.

Azərbaycan dövlətinin yuxarıda qeyd olunan istiqamətlərdə səylərini birləşdirdiyi üçün QHT-lərə kifayət qədər maliyyə ayıra bilmədiyini vurğulayan Umud Mirzəyev Azərbaycan QHT-lərinin BMT-də kifayət qədər təmsil oluna bilməməsini də bu faktorla əlaqələndirib. BAMF-ın BMT ilə əməkdaşlığının tarixindən də söz açan Umud Mirzəyev qeyd etdi ki, BMT-nin keçmiş baş katibi V.C.Çanqın həmyerlisi Pan Ki Munun rəhbərliyi dövründə qurulan əlaqələrin güclənməsi Azərbaycan QHT-ləri ilə BMT münasibətləri üçün mühüm mərhələ kimi yadda qalıb.




**15 Noyabr** COP29-da Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) “Sülhün Kökləri” təşkilatı ilə birlikdə növbəti yan tədbiri təşkil edib. Sülhün, Torpağın və Ekosistemlərin Minatəmizləmə və Kənd Təsərrüfatı Vasitəsilə Bərpası" mövzusunda baş tutan panel müzakirələrində BMT-nin QHT Bölməsinin rəhbəri Vuk Cin Çanq, ANAMA-nın Maarifləndirmə və Zərərçəkənlərlə iş şöbəsinin müdiri Ramil Əzizov, “Sülhün kökləri” təşkilatının təsisçisi və rəhbəri Heidi Kühn, Beynəlxalq Bilik İqtisadiyyatı

və Müəssisələrin İnkişafı Təşkilatının (IKED) sədri Tomas Anderson, Forbes"-un qida və ətraf mühit üzrə mükafat qazanan məşhur jurnalisti Dafne Ewing-Chow, Keniya Respublikasının UNEP-dəki daimi nümayəndəsi Səfir xanım Gertrude Angote, Bərpa Olunan Enerji üzrə Ərəb Platformasının Prezidenti Kamel Esseghairi, ANAMA yanında İctimai şuranın sədr müavini Emil Həsənov və digər dəyərli qonaqlar yer almışdı. Azərbaycan Milli QHT Forumu Pavilyonunda keçirilən bu yan tədbir mina təhlükəsinin yalnız təhlükəsizlik deyil, həm də dayanıqlı inkişaf və ekoloji tarazlıq üçün ciddi təhdid olmasına vurğu edib. İlk olaraq açılış nitqi ilə çıxış edən **BAMF prezidenti Umud Mirzəyev** minalarla çirklənmiş ərazilərdə təhlükəsizlik problem ilə yanaşı çox ciddi ekoloji təhdidin olmasını vurğulayıb: “Biz burada yalnız torpaqları minalardan təmizləmək haqqında danışmırıq; biz əslində o torpaqların gələcək nəsillərə sülh içində ötürülməsi haqqında danışırıq. Torpağın minalardan azad edilməsi, orada həyatın yenidən canlanması deməkdir – kənd təsərrüfatının inkişafı, əhalinin köçürülməsi, iqtisadi fəaliyyətin bərpası və yeni bir ekosistemin yaradılması deməkdir.”







Daha sonra BAMF-ın mina problemi və 18-ci DİM təşəbbüsü ilə bağlı hazırladığı video-çarx nümayiş etdirilib. Video təqdimatdan sonra söz alan **BMT-nin QHT Bölməsinin rəhbəri Vuk Cin Çanq** QHT-lərin sülh quruculuğundakı əvəzsiz rolunu vurğuladı və onların münaqişədən təsirlənmiş icmalarla birgə fəaliyyətinin və sülh quruculuğundakı əhəmiyyətli rolundan danışdı. **Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Maarifləndirmə və Zərərçəkənlərlə iş şöbəsinin müdiri Ramil Əzizov** isə çıxışında mina təmizləmə prosesinin ekosistemlərin və insan həyatının qorunmasında vacibliyindən danışıb: “Minaların və digər növ müharibənin partlayıcı qalıqlarının məhvi ilə humanitar minatəmizləmə əməliyyatları flora və faunanın təhlükəsizliyi təmin edir. ANAMA rəsmisinin çıxışından sonra isə **“Sülhün kökləri” təşkilatının təsisçisi Heidi Kuhn** özünün dünya miqyasında tanınan “Minalarda üzüm bağlarına” təşəbbüsünün icmalara təsirindən və genişlənən əhatə dairəsindən söz açıb. Çıxışçılar

arasında, həmçinin, Mina aksiyası üzrə beynəlxalq ekspert Emil Həsənov, Beynəlxalq Bilik İqtisadiyyatı və Müəssisələrin İnkişafı Təşkilatının (IKED) sədri Tomas Anderson və Bərpa Olunan Enerji üzrə Ərəb Platformasının Prezidenti Kamel Esseghairi yer alıb.

18 noyabr 2024-cü il – Bakı, Azərbaycan. Dünya Ərzaq Mükafatı laureatı, "Sülhün Kökləri" təşkilatının təsisçisi Heidi Kuhn və Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Umud Mirzəyev dünən Qarabağın təhlükəli mina sahələrində



cəsarətlə addımlayaraq, mina probleminin təcili həllinə və bölgənin bir vaxtlar çiçəklənən üzümçülük sahələrinin bərpasına diqqət çəkməyə çalışıblar. Onlar "Minalardan Üzümlüyə" şüarı ilə məhsuldar torpaqları minalardan təmizləyərək yenidən üzüm bağlarına çevirmək ideyasını qlobal səviyyədə yaymaq istəyirlər.

Qlobal liderlər Bakıda keçirilən COP29 Birləşmiş Millətlər Təşkilatının İqlim Sammitində bir araya gəldiyi bir vaxtda, Kuhn və Mirzəyev dünya ictimaiyyətinin minaların iqlim dəyişikliyinə təsirini nəzərdən qaçırdığına diqqət çəkirlər.

Qarabağın minalanmış əraziləri COP29 tədbirinin keçirildiyi Bakı Stadionundan cəmi üç saatlıq məsafədə yerləşir. Hansı ki, bu stadionda 200-ə yaxın ölkədən ümumilikdə 72,000 nümayəndə toplaşıb. Bölgədə yerləşdirilmiş və hələ də gizli qalan təxminən 1.5 milyon mina icmalar və ətraf mühit üçün davamlı risklər yaradır. Təəssüf ki, 2020-ci ilin noyabr ayından indiyədək 382 nəfər günahsız azərbaycan vətəndaşı minaların qurbanı olub.

Kuhn bildirir: “COP29-un əsas mövzusu “Yaşıl Dünya üçün Həmrəylikdir”. Lakin yaşıl dünyaya mina basdırılmış torpaqlarda və müharibənin qanlı izləri fermerlərin sahələrini becərməsinə mane olduğu halda nail olmaq mümkün deyil. Yaşıl dünyanın ilk addımı təhlükəsiz və məhsuldar torpaqdır. Lakin bu, nə münaqişə zamanı, nə də minaların mövcud olduğu yerlərdə reallaşa bilər. 2050-ci ilə qədər dünyada təxminən 10 milyard insan yaşayacaq və artan müharibələr nəticəsində həm torpaqda, həm də insan ruhunda səpilən bu terror toxumları gələcək nəsilləri qidalandırmağa mane olacaq.”

COP29 zamanı Umud Mirzəyevin dəvəti ilə Azərbaycanda səfərdə olan Forbes nəşrinin tanınmış jurnalisti Dafne Evin Çou BAMF prezidenti və Heidi Kuhnla birlikdə Qarabağa – minalanmış ərazilərə səfər ediblər. Xanım Dafne qida sistemləri və ətraf mühitlə bağlı qlobal müzakirələrə verdiyi önəmli töhfələri ilə tanınan qida və ətraf mühit üzrə mükafat qazanan peşəkar jurnalistdir. O, səfərin yekununda öz təəssüratları ilə bağlı "Forbes"-un rəsmi saytında və jurnalında məqalə dərc etmişdir.



BAMF-ın vitse prezidenti Oğuz Mirzəyev COP29 müddətində 7-22 noyabr tarixlərində Əl Cəzirə Media Şəbəkəsinin İngilis kanalının və "Talk to Al Jazeera" proqramının Azərbaycana ezam olunmuş heyətini müşaiyət etmiş və bütün çəkilişlərin hazırlanmasında dəstək göstərmişdir. Bu müddət Əl Cəzirə çəkiliş heyəti Dənizkənarə Bakı Bulvarı, Balaxanı neft buruqları, Şirvan Milli parkı kimi ərazilərdə çəkilişlər aparmış, sənədli filmlər, çarxlar və ölkə əhəmiyyətli şəxslərlə müsahibələr hazırlamış və bir neçə dəfə canlı yayımlar təşkil etmişlər.



# Digər görüşlər, əməkdaşlıqlar və fəaliyyətlər

18 Mart - Nobel Sülh Mükafatı Laureatı, professor Məhəmməd Yunus ilə BAMF-ın Bakı ofisində Himayəçilik Şurasının üzvlərinin iştirakı ilə görüş keçirilib. Görüşdə BAMF prezidenti Umud Mirzəyev fondun fəaliyyəti, çoxillik missiyası, Qarabağda olan mina problemi, yenidənqurma işləri və Qarabağ münaqişəsindən sonra Azərbaycanda baş verən mühüm dəyişikliklərdən söz açıb. Daha sonra Məhəmməd Yunusun təşəbbüsü ilə yaradılan "3 sıfır" klublarının Azərbaycanda fəaliyyətinin genişlənməsi, yeni klubların yaradılması, Qarabağ gənclərinin bu klublara cəlb olunması və bu il Azərbaycanda "3 sıfır" klublarının regional görüşünün keçirilməsi məsələsi müzakirə olunub. Həmçinin Umud Mirzəyev tərəfindən təklif olunan yeni yaradılacaq Qarabağ Universitetində "Yunus Sosial Biznes Mərkəzi"-nin açılması ideyası da Məhəmməd Yunus tərəfindən bəyənilib və dəstəklənib. Görüş zamanı COP29 çərçivəsində əməkdaşlıq perspektivləri və ortaq fəaliyyətlər barəsində də danışıqlar aparılıb. Görüşdə Beynəlxalq Avrasiya Mətbuat Fondunun Himayəçilik şurasının üzvləri ilə tanışlıq olub. Şuranın sədri Çingiz Abdullayev ingilis dilinə tərcümə olunmuş üç kitabını, Umud Mirzəyev isə Qarabağ mədəniyyətini və adət-ənənəsini əks etdirən xatirə hədiyyələrini Məhəmməd Yunusa təqdim edib. Sonda xatirə şəkilləri çəkdirilib.

---




BAMF-ın baş ofisində keçirilən görüşdən sonra Azərbaycan İqtisad Universitetinin (UNEC) əsas - İçərişəhər korpusunda BAMF, Yunus Sosial Biznes Mərkəzi və UNEC arasında bağlanan üçtərəfli müqavilə əsasında 2016-cı ildə yaradılan "Yunus Sosial Biznes Mərkəzi"-nin yeni ofisinin açılışı olub. Açılış mərasimində professor

Məhəmməd Yunus, AMEA-nın prezidenti İsa Həbibbəyli, UNEC-in rektoru Ədalət Muradov, BAMF-ın Himayəçilik şurasının sədri Çingiz Abdullayev və BAMF-ın prezidenti Umud Mirzəyev mərkəzin qırmızı lentini kəsiblər. BAMF və UNEC rəhbərliyinin, müəllim-tələbə heyətinin və digər qonaqların iştirak etdiyi açılışda professor Məhəmməd Yunus tərəfindən yeni açılan Sosial Biznes Mərkəzin ilk mühazirəsi səsləndirilib.

Daha sonra BAMF-ın müşayiəti ilə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli Məhəmməd Yunusu AMEA-nın rəyasət heyətinin yerləşdiyi İsmailiyyə binası və akademiyanın fəaliyyəti ilə tanış edib. Gəzinti zamanı İsa Həbibbəyli dəyərli qonağa sarayın qədim tarixi haqqında məlumat verib və Azərbaycanın milli dəyərləri əks olunan hədiyyələr təqdim edib. Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dəvəti ilə XI Qlobal Bakı Forumunda iştirak etmək üçün səfər edən Nobel sülh mükafatı laureatı Məhəmməd Yunus ilk dəfə olaraq 2016-cı ildə BAMF-ın dəvəti ilə Azərbaycanda olub. Professor Məhəmməd Yunus 20 fərqli ölkədən olan universitetlərdə 55 fəxri dərəcəyə, həmçinin 26 ölkənin 112 mükafatına, o cümlədən 10 ölkənin dövlət mükafatına layiq görülüb. O, ABŞ Prezidentinin Azadlıq medalını və ABŞ Konqresinin qızıl medalını almış yeddi şəxsdən biridir. Onun adı "Son 25 ilin ən nüfuzlu biznes adamları", "Dövrümüzün 12 dahi sahibkarları", "Top 100 intellektual şəxslər" kimi önəmli siyahılarda da çəkilir.



BAMF-ın tərəfdaşlarından olan Qarabağ Dirçəliş Fondunun (QDF) İdarə Heyətinin sədri Rəhman Hacıyev Qarabağa səfəri çərçivəsində BAMF-ın regionda gördüyü işlərlə tanış olub. O, Ağdamda qadın minaaxtaranların çalışdığı mina sahəsində əməliyyatları izləyib. BAMF-ın İcma Mina Aksiyasının Əməliyyat Meneceri Şahin Allahverdiyev və regional menecer Ruslan İbrahimbəyli qonağa görülən işlər haqqında məlumat veriblər. QDF, həmçinin, Qarabağın minalardan təmizlənməsi və yenidənqurulmasında ANAMA-nın da əsas partnyorlarından biridir.



BAMF Qarabağ Dirçəliş Fondunun (QDF) elan etdiyi "Qarabağın Rəngləri" adlı ianə layihəsi çərçivəsində gənc rəssam Vüsalə Şərifovanın "Vətənin əks sədaları" əsərini alaraq sözügedən layihəyə dəstəyini nümayiş etdirmişdir.




*Qarabağ Dirçəliş Fondunun (QDF) İdarə Heyətinin sədri Rəhman Hacıyev və BAMF prezidenti Umud Mirzəyev*

---

6 may Amerika Dini Azadlıq Mərkəzinin rəhbəri, eyni zamanda, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin ABŞ-da təsisçi icraçı direktoru Janna Skot və ABŞ-da fəaliyyət göstərən Pakistan Şurasının sədri Adnan Xan Beynəlxalq Avrasiya Mətbuat Fondunun qonağı olublar. BAMF-ın prezidenti Umud Mirzəyev qonaqları Bakı ofisində qarşılayıb. O, qonaqlara təşkilatın yaranması ilə bağlı 90-cı illərin əvvəlində Azərbaycanda, o cümlədən Qafqaz və post-Sovet məkanlarında obyektiv informasiyaya duyulan ehtiyacdan bəhs edib.



Pakistan Şurasının sədri Adnan Xan öz növbəsində BAMF-ın fəaliyyətini yüksək dəyərləndirib, görülən işlərlə bağlı Umud Mirzəyevi təqdir edib. Amerika Dini Azadlıq Mərkəzinin rəhbəri Janna Skot da fondun gördüyü işləri qiymətləndirib. O, bildirib ki, gələcək nəsillərə həyat ağacını verməliyik ki, irəliyə doğru getsinlər.




"Bu gün burada olmaq məni həqiqətən ruhlandırdı. Elə bir dövrdəyik ki, hər şey çox sürətlə gedir. Düşüncə tərzimizi dəyişdirməliyik. Bu, təkcə dünyəvi humanizm olmayacaq, həm də inanc ənənənizdən, inanc sisteminizdən asılı olmayaraq, hər birimizin daxilində canlı olan ruhdan almalıyıq. Hamımızın ruhumuz var, biz birlikdə ruhun gücündən almalıyıq". Görüşdə, eyni zamanda, Azərbaycanda multikulturalizm modelinin mütərəqqi bir model kimi təbliği istiqamətində görülən işlər və gələcək layihələr barədə də müzakirələr aparılıb.

3 iyul Azərbaycan Respublikasının Alban- Alban-Udi Xristian dini icmasının sədri, Bakı Dövlət Universitetinin (BDU) baş elmi işçisi, "Şöhrət" ordenli Robert Mobili Robert Mobili Beynəlxalq Avrasiya Mətbuat Fondunun qonağı oldu. Albanşünaslığın təbliği istiqamətində aparılan işlər, saxtalaşdırılan, dağıntılara məruz qalan Alban kilsələri və mədəniyyəti haqqında müzakirələr aparılıb.





Azərbaycanın ilk özəl enerji şirkəti olan "GL LTD" şirkətinin Xarici əlaqələr və kommunikasiyalar üzrə vitse prezidenti İlqar İbrahimli BAMF-ın baş ofisinin qonağı olub. Görüş zamanı BAMF prezidenti Umud Mirzəyev BAMF-ın tarixindən və fəaliyyət istiqamətlərindən danışıb. Qarşılıqlı əlaqələrin inkişafına dair gələcək fəaliyyətlər müzakirə olunub.



4 iyul Ümumdünya Yazıçılar Təşkilatının katibi, Azərbaycan Ədəbiyyat Fondunun baş direktoru, görkəmli yazıçı Varis (Varis Yolçuyev) Beynəlxalq Avrasiya Mətbuat Fondunun qonağı olub. Xarici və yerli ədəbiyyat ətrafında müzakirələr aparılıb. Dəyərli yazıçı kitablarından birini - "Qızıl cib saatı"-nı da BAMF-a hədiyyə edib.

**5 iyul** Görkəmli rəssam-modelyer, əməkdar incəsənət xadimi, dosent Fəxriyyə Xələfova BAMF-ın baş ofisində olub. Görüşdə Qarabağdan, dağıdılımış abidələrdən, ermənilərin bir zamanlar kilsəyə çevirdiyi Şahbulaq qalasından, Xurşidbanu Natəvandan danışılıb. Həmçinin, Fəxriyyə xanımın Qarabağla bağlı həyata keçirmək istədiyi idealar ətrafında fikir mübadiləsi aparılıb. Umud Mirzəyev bu istiqamətdə mümkün əməkdaşlıqdan məmnun olacaqlarını ifadə edib.



15 iyul ANAMA yanında İctimai Şuranın sədri Umud Mirzəyev və Daxili İşlər Nazirliyi yanında fəaliyyət göstərən İctimai Şuranın sədri, vətəndaş cəmiyyəti təşkilatlarının tanınmış siması, görkəmli hüquqşünas Əliməmməd Nuriyev ilə birlikdə Dövlət Təhlükəsizliyi Xidmətinin hospitalında müalicə alan minaaxtaran Anar Ənnağızadəyə baş çəkiblər. Anar Ənnağızadə 20 iyun 2024-cü il tarixdə Cəbrayıl rayonunda baş verən mina insidentindən sonra həkimlərin fədakarlığı sayəsində sağ qalmışdır. Çox təəssüf ki, həmin hadisə zamanı ANAMA-nın digər peşəkar minaaxtaranı Rafiq İsayev isə həlak olmuşdur.





25 İyul Çexiya Respublikasının Azərbaycandakı Missiya rəhbərinin müavini Martin Luboyatski və səfirliyinin Attaşesi Yana Pokarna Beynəxalq Avrasiya Mətbuat Fondunun qonağı olublar. Görüş zamanı fondun prezidenti Umud Mirzəyev təşkilatın yaranma tarixi, müxtəlif sahələri əhatə edən fəaliyyəti və həyata keçirdiyi çoxsaylı layihələr barədə qonaqlara məlumat verib. Umud Mirzəyev qurumun gördüyü işlər çərçivəsində ölkəmizin Qarabağ münaqişəsindən sonra qarşılaşdığı ciddi mina problemi sahəsində də BAMF-ın həyata keçirdiyi layihələr barədə geniş danışıb. Görüş zamanı tərəflər arasında regionda vəziyyət, dünyada mövcud münaqişə ocaqları, müharibə, onun fəsadları və post-müharibə dövründəki bərpa prosesləri, münaqişə zonasından obyektiv informasiyanın çatdırılmasının vacibliyi barəsində fikir mübadiləsi aparıldı. Mümkün əməkdaşlıq imkanlarına toxunan tərəflər, perspektivdə Çexiya ilə BAMF arasında sosial-humanitar layihələr çərçivəsində işbirliyinin səmərəli ola biləcəyini vurğuladılar.





BAMF Banqaldeşdə baş verən hökumət daxili hadisələrdə təşkilatın dəyərli dostu, Nobel Sülh Mükafatı laureatı, professor Məhəmməd Yunusu dəstəkləyən məktub ünvanlayıb. Məktubda Məhəmməd Yunusun sarsılmaz mübarizəsinin olduqca qiymətli olduğu və BAMF-ın hər zaman onu və onun qərarlarını dəstəkləyəcəyi qeyd olunub.

21 avqust 14 saylı Xəzər - Pirallahı seçki dairəsindən deputatlığa namizəd, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun ilk prezidenti, Türk dünyasının tanınmış simalarından olan Günay Əfəndiyevanın təbliğat-təşviqat kampaniyası çərçivəsində seçiciləri ilə keçirilən görüşündə BAMF prezidenti Umud Mirzəyev də iştirak edib. O, layiqli millət vəkili namizədlərindən olan Günay xanım seçicilərinin dəstəyi ilə parlamentdəki öz yerini alacağını ifadə edib.





22 Noyabr Dayanıqlı İnkişaf Məqsədləri üçün Sosial Biznes üzrə Qlobal Komitənin direktoru, "YouThink" mərkəzinin sədri Alex Wang ofisimizin qonağı oldu. Çin nümayəndə heyətinin tərkibində COP29-da bir çox tədbirlərin təşkilatçısı olan Aleksla sosial biznes sahəsində mümkün əməkdaşlıq imkanlarını müzakirə etdik.

23 noyabr Keniyanın UNEP-dəki daimi nümayəndəsi, xanım səfir Gertrude Angote və Afrikanın "Il'laramatak" İcma Konserninin (ICC) təsisçisi və icraçı direktoru xanım Agnes Leina BAMF-ın qonağı oldular. Görüşdə BAMF-ın ətraf mühitin qorunması istiqamətində gördüyü işlərdən, 2013-cü ildə təsdiqlənən UNEP-ə üzvlük tarixçəsindən və gələcək birgə fəaliyyətlərdən danışılıb.





BAMF tələbələrə iş və karyera imkanları təklif edən 100-dən çox dövlət qurumunun və şirkətin iştirakı ilə ADA Universitetində keçirilən Karyera sərgisində təmsil olunub. BAMF rəsmi partnyoru olduğu ADA universitetinin təşkil etdiyi analoji sorğularda hər il aktiv iştirakı ilə yadda qalır.







BAMF prezidenti Umud Mirzəyev Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubiley medalı ilə təltif edilib. U. Mirzəyev Azərbaycanın ilk təhsil ocaqlardan biri olan ADPU-nun adı ilə bağlı belə bir əhəmiyyətli təltifə layiq görüldüyü üçün Təhsil naziri cənab Emin Amrullayev və rektor Cəfər Cəfərova təşəkkürlərini çatdırıb. Yubiley medalını Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü İsrayıl İsgəndərov təqdim edib.

Rusiyanın "Vestnik Kafkaza" İnformasiya Agentliyinin Baş direktoru, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tarix fakültəsinin dosenti İsmayıl Atakişiyev BAMF-ın baş ofisinin qonağı olub. O daha öncə BAMF-ın regionda davam edən fəaliyyətləri ilə yaxından tanış olmuşdu. Umud Mirzəyev ölkədən kənarda Azərbaycan üçün çalışan qonağa BAMF-ın 30 illik kitabını təqdim edib.



Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin imzası ilə təşkilatın rəhbəri Umud Mirzəyevə və BAMF-ın İcma Mina Aksiyasının bir qrup əməkdaşına uzun illər təmas xətti boyunca müharibədən zərər çəkmiş bölgələrdə və eləcədə son illərdə işgaldan azad olunmuş ərazilərdə görülən işlər və uğurlu əməkdaşlıq səbəbiylə "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı təqdim olunub.




23 sentyabr VII çağırış Milli Məclisin deputatı Elman Nəsirov, 24 sentyabrda isə Razi Nurullayev BAMF-ın ofisin ziyarət ediblər. Cari sessiyanın ilk iclasından sonra BAMF-ın qonağı olan millət vəkilləri ilə gündəm ətrafında müzakirələr aparılıb. Umud Mirzəyev yenidən seçicilərinin etimadını doğruldaraq deputat seçilən hər iki millət vəkilini təbrik edib.







26 sentyabr tədqiqatçı, jurnalist, şair və yazıçı, Kərkük qəzetinin baş redaktoru Şəmsəddin Küzəçi yenidən BAMF-ın ofisində qonaq olub. O Umud Mirzəyevə "Kərkükün Milli Tədqiqatçısı Ətə Tərzibaşı" haqqında olan kitabını hədiyyə edib.

5 oktyabr Umud Mirzəyev Dünya Gənc Türk Yazarlar Birliyinin 25 illik yubiley medalı ilə təltif edilib. Tədbirdə çıxış edən BAMF prezidenti göstərdikləri diqqətə görə birliyin əsas qurucularından biri olan Əkber Qoşalıya və başqan İntiqam Yaşara təşəkkür edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.






09 oktyabr VII çağırış Milli Məclisin deputatı, Umud Mirzəyevin çoxillik dostu Vüqar Rəhimzadə BAMF-ın qonağı olub.

28 oktyabr VII çağırış Milli Məclisin deputatı, ADA universitetinin prorektoru Fariz İsmayılzadə BAMF-ı ziyarət edib.



10 dekabr Azərbaycan Dövlət İqtisad Universitetinin akt zalında BAMF prezidenti, Umud Mirzəyevlə universitet tələbələrinin görüşü keçirilib. Azərbaycan Dövlət İqtisad Universitetinin Tələbə Elmi Cəmiyyətinin təşəbbüsü ilə keçirilən görüşdə əvvəlcə Umud Mirzəyevin rəhbərlik etdiyi təşkilatın - BAMF-ın 32 illik fəaliyyətini əks etdirən sənədli film nümayiş olunub. Ardınca, fondun prezidenti Umud Mirzəyev karyerasının ilk günlərindən indiyədək əldə olunan uğurlardan, qazanılan nailiyyətlərdən və qarşıya çıxan çətinliklərdən danışıb.

U.Mirzəyevdən sonra söz alan UNEC-in Əlavə təhsil şöbəsinin müdiri, İqtisadiyyat kafedrasının dosenti Emin Qəribli bu cür görüşlərin və təşəbbüslərin əhəmiyyətini qeyd edib. Daha sonra tədbirin xüsusi qonağı, Albaniya Respublikasının Azərbaycandakı sabiq səfiri Gənci Mucay çıxışında tələbələrlə fikirlərini bölüşüb.



Dekabrın 13-də Beynəlxalq Avrasiya Mətbuat Fondunun Himayəçilik şurasının ilin yekunlarına dair genişləndirilmiş iclası keçirilib. BAMF-ın baş ofisində keçirilən görüşdə ilk olaraq çıxış edən təşkilatın prezidenti Umud Mirzəyev 2024-cü ildə görülən işlərdən, əldə olunan nəticələrdən və hazırlanma mərhələsində olan illik hesabatdan danışıb. O, ilin əvvəlində qarşıya qoyulan və planlanan fəaliyyətlərin uğurla icra olunduğunu və bütün bunların növbəti ilin yanvar ayında təsdiqlənəcək yekun hesabatda öz əksini tapacağını qeyd edib.




Ardınca davam edən iclasda Albaniyanın Azərbaycanda və Türkiyədəki sabiq səfiri, dövlət xadimi, diplomat cənab Gənci Muçay BAMF-ın beynəlxalq məsələlər üzrə məsləhətçisi seçilib. BAMF-ın Himayəçilik şurasının sədri Çingiz Abdullayev cənab səfirə BAMF-ın rəsmi vəsiqəsini təqdim edib və bu

təyinatın milli və beynəlxalq səviyyədə əhəmiyyətindən danışıb. O, cari ilin sonunda qəbul edilən bu qərarın olduqca faydalı olacağını xüsusilə qeyd edib. Daha sonra isə yeni seçilən və Azərbaycanda çalışdığı dönəmdən BAMF-ın fəaliyyətini izlədiyini bildirən səfir Gənci Muçay məmnunluğunu ifadə edib və öz dəstəyini və töhfəsini göstərmək üçün səbirsizləndiyini vurğulayıb: “BAMF-ın prezidenti Umud Mirzəyev və onun komandasının son 30 ildə gördüyü işlər göz önündədir. Mən aramızda olan dostluq və qardaşlıq əlaqələrinin fonunda bu cür əməkdaşlığı yüksək qiymətləndirirəm” deyə, cənab səfir qeyd edib.







Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) ofisində Azərbaycanda minadan zərərçəkənlərlə bağlı 11 rayon və şəhər üzrə aparılan tədqiqatın nəticələri ilə bağlı tədbir keçirilib. Tədqiqat Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası (AMZA) İctimai Birliyinin həyata keçirdiyi “Mina/PHS hadisələrinin və onun təsirlərinin azaldılmasına dəstək” adlı layihə çərçivəsində aparılıb. Bu barədə AMZA sədri, layihə rəhbəri Rey Kərimoğlu çıxış edərkən bildirib: “Biz Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə 5 ay ərzində layihə çərçivəsində minadan və partlamamış hərbi sursatlardan zərər çəkmiş şəxslərin 11 rayon və şəhərdə (Füzuli, Beyləqan,

Ağdam, Ağcabədi, Bərdə, Tərtər, Goranboy, Naftalan, Abşeron, Bakı və Sumqayıt) siyahısını müəyyənləşdirib dəqiqləşdirdik. Sonra adıçəkilən rayon və şəhərlərdə beynəlxalq forma olan İnformasiyanın İdarə Edilməsi Sistemi (İMİSMA) agentləri vasitəsilə sorğular keçirdik. Layihənin icrası və “Mina/PHS hadisəsi və zərərçəkən barədə hesabat”, “Minalardan zərərçəkənlərin ictimai bərpası və reinteqrasiyası üçün ehtiyaclarının öyrənilməsi” adlı anketlərin doldurulması üçün zərərçəkənlərdən ibarət komanda formalaşdırdıq. Adı çəkilən rayon və şəhərlərdən minə yaxın minadan zərərçəkəndən 866-sı sorğulara cəlb olunaraq toplanmış məlumatlar təhlil edilib.” R.Kərimoğlu layihənin icrasına yaxından dəstək verdiyinə görə ANAMAvə BAMF rəhbərliyinə, həmçinin dövlət orqanlarına minnətdarlığını bildirib. Ekspertin çıxışından sonra söz alan ANAMA Maarifləndirmə və zərərçəkənlərlə iş şöbəsinin müdiri Ramil Əzizov mina probleminin aktuallığı və ANAMA-nın mina probleminin nəticələrinin aradan qaldırılması istiqamətində gördüyü tədbirlərdən danışdı:





"Vətən müharibəsindən sonra 382 nəfər mina qurbanı qeydə alınıb, onlardan 70 nəfər həlak olub, 312 nəfər müxtəlif dərəcəli xəsarət alıb. Bu hadisələrin 70%-ə yaxını müdafiə məntəqələrində deyil, keçmiş təmas xəttindən kənarda mülki təyinatlı ərazilərdə qeydə alınıb.”

Tədbirin gedişində UNICEF-in Fövqaladə Hallar və PSTM üzrə mütəxəssisi Bəxtiyar Səlimov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında ictimai şuranın sədri Professor Elşad Məmmədov, ƏƏSMN-nin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin direktoru Asif Məcidov, Minadan zərərçəkən. ANAMA yanında ictimai şuranın üzvü Hafiz Əzimzadə, Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Əfqan Vəliyev, TƏBİB əməkdaşı Elşad Əliyev,“Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri Hafiz Səfixanov, Çıraq” Humanitar və İnkişaf İctimai Birliyinin direktoru Nadir Cəfərov, ANAMA -nın Maarifləndirmə və zərərçəkənlərlə iş şöbəsinin baş mutəxəssisi Ceyhun Quliyev, Əmək və Əhalinin Sosial Müdafiəsi

Nazirliyi Yanında İctimai Şuranın üzvü Aslan Əzimzadə və digər iştirakçılar söz alaraq tədqiqata və layihəyə dair razılıqlarını ifadə etdilər.

Dekabrın 17 İsveçrə Parlamentinin Aşağı Palatası "Dağlıq Qarabağ: Sülh forumu" adlı qətnaməsi ilə bağlı BAMF rəsmi bəyanat verib.

Bəyanatın mətni:

"Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF), sülhün təşviqinə yönəlmiş beynəlxalq təşkilat olaraq, 17 dekabr 2024-cü il tarixində İsveçrə Parlamentinin Aşağı Palatasında müzakirəyə çıxarılan təkliflə bağlı ciddi narahatlığını ifadə edir. Sözügedən qətnamədə "Dağlıq Qarabağ münaqişəsi" mövzusu ətrafında beynəlxalq sülh forumunun təşkili və bölgədən könüllü şəkildə ayrılmış erməni sakinlərin geri qaytarılması üçün şəraitin yaradılmağı nəzərdə tutulur. Bu, həm hüquqi, həm də siyasi baxımdan dərin təhlil və hərtərəfli araşdırma tələb edən mürəkkəb məsələlərə yol açır.

Bu yanaşma, təəssüf ki, sülhün təşviqinə xidmət etmir, əksinə, gərginliyi artırmaq riskini yaradır. Qətnamə barışıq və qarşılıqlı anlaşmaya yönəlmiş səyləri zəiflədən birtərəfli mövqeni əks etdirir.

2023-cü ildə münaqişənin həlli ilə Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmiş və Qarabağ regionu işğaldan azad olunmuşdur. Bu nəticə Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq qurumlar da daxil olmaqla beynəlxalq ictimaiyyət tərəfindən tanınmışdır.

Yanlış narrativlər əsasında forumların təşkilinə dair irəli sürülən təkliflər Cənubi Qafqazda uzun illərin zəhməti , hətta fədakarlığı nəticəsində əldə edilmiş davamlı sülh və sabitliyə ciddi təhlükə yaradır. Bu məsələlərin Azərbaycanın suverenliyinə hörmətlə və beynəlxalq hüquq prinsiplərinə uyğun şəkildə həll edilməsi zəruridir.

Biz müşahidə edirik ki, bəzi dairələrdə regionun reallıqları ilə bağlı narahatlıq doğuran məlumat çatışmazlığı mövcuddur. Müəlliflər işğal altında olduğu dövrdə Qarabağın xarabalığa çevrildiyi faktını gözardı edir. Son 30 il ərzində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün ağır çətinliklərə məruz qalması ilə bağlı problemlər barədə çoxları məlumatsızdır. Xocalı, Qaradağlı, Ağdaban kimi foto, video faktları olan ermənilər tərəfindən törədilmiş çoxsaylı qətliamlar və soyqırımlar diqqətdən kənarda qalmışdır. Bunun əvəzinə, 1915-ci il hadisələri kimi yalan olduğu tarixi faktlarla üzə çıxarılan hadisələr naməlum səbəblərdən diqqət mərkəzində qalmağa davam edir. Belə laqeydlik saysız-hesabsız qurbanların haqq səsini susdurur və regionun tarixi haqqında təsəvvürləri təhrif edir. Bu faktorlar səmimi və əhatəli barışıq səylərinin təcili ehtiyacını bir daha vurğulayır.

Belə təkliflər və bəyanatlar mövcud məsələlərin həllinə, münasibətlərin yaxşılaşdırılmasına və gərginliyin azaldılmasına nəinki xidmət etmir, hətta onları böyüdür və dərinləşdirir. Üç onillik ərzində Azərbaycan ədalət və sülh uğrunda mübarizə aparmış, bu məqsədlərə çatmaq üçün böyük fədakarlıqlar göstərmişdir.

Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) sülh quruculuğu təşəbbüslərinin irəliləməsinə, millətlər və cəmiyyətlər arasında konstruktiv dialoqun təşviqinə olan dəyişməz bağlılığını bir daha vurğulayır. Biz İsveçrəni neytrallıq və vasitəçilik ənənəsi ilə tanınan ölkə kimi bölgədəki gərginliyi artırmaq və ya yanlış anlamaları davam etdirmək əvəzinə, davamlı sülhə məqsədyönlü şəkildə töhfə verməsini təmin etməyə çağırırıq".

23 dekabr Azərbaycan Dövlət İqtisad Universitetinin Heydər Əliyev Mərkəzində Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev universitetin "Sabah qrupları" və "Maliyyə və Mühasibat Uçotu" fakultəsinin tələbələri ilə görüşüb.

Azərbaycan Dövlət İqtisad Universitetinin Tələbə Elmi Cəmiyyətinin təşəbbüsü ilə keçirilən görüşdə əvvəlcə Umud Mirzəyevin rəhbərlik etdiyi təşkilatın - BAMF-ın 32 illik fəaliyyətini əks etdirən sənədli film nümayiş olundu. Daha sonra Umud Mirzəyev karyerasının ilk günlərindən indiyədək əldə olunan uğurlardan, qazanılan nailiyyətlərdən və qarşıya çıxan çətinliklərdən danışıb. U.Mirzəyevdən sonra söz alan BAMF-ın Proqram Departamentinin Rəhbəri Xudaverdi Quliyev "3 Sıfır" layihəsindən bəhs edib və həmçinin, bu cür görüşlərin və təşəbbüslərin əhəmiyyətini qeyd vurğulayıb. Nobel Sülh Mükafatının laureatı Məhəmməd Yunusun ideya müəllifi olduğu "3 Sıfır" təşəbbüsü ilə bağlı tələbələri məlumatlandıran X.Quliyev komandaların fəaliyyəti haqqında danışdı.

